# Muxtariyyətin 100-cü ali təntənəsi




*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 7 (24.389)

*10 fevral 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*


# Azərbaycan xalqının növbəti qələbəsi




7 fevral 2024-cü ildə uğurla keçirilən növbədənkənar prezident seçkiləri istər vətəndaşlarımızın seçki fəallığı, istərsə də seçkinin nəticəsi ilə Azərbaycan xalqının növbəti qələbəsini dünyaya elan etdi. Həmin gün axşam saatlarından küçə və prospektlərə axışıb Zəfər seçkisinin qələbəsini bir-biri ilə paylaşan azərbaycanlılar üçün bu qələbə unudulmaz 9 Noyabr gecəsindən sabaha qədər bütün günü yaşadığımız tariximizin ən böyük bayram gününü yaddaşlarımızda yenidən yaşatdı. Bir daha heç kimə məğlub olmamaq, bütün ömrü boyu Qalib Xalq kimi yaşamaq üçün Azərbaycan Qalib Lideri İlham Əliyevi yenidən prezident vəzifəsinə seçdi.

Hər dövlət başçısı seçimi ölkələrin, onların xalqlarının və dünya birliyinin maraqlarını əks etdirən mühüm siyasi hadisədir. Bu mənada, güclü dövlət qurub onun çətiri altında firavan və xoşbəxt ömür sürməyi bacaran xalqlar üçün seçim şüarı həmişə “Birlik və həmrəylik!” olub, hər cür kənar təsirlərə qarşı birgə mübarizəni özündə ehtiva edir. Müstəqillik tarixi ərzində bütün belə təsir və təhlükələrlə üzləşmiş Azərbaycanın bu seçim qələbəsi də xalqımızın, dövlətimizin, ordumuzun qələbələrinə qısqananlar, yaxud ölkəmizə qarşı açıqca düşmən münasibətini gizlətməyənlər üçün açıq bir xəbərdarlıq oldu. 7 fevral qələbəsi çox yaxın tarixdə “20 Yanvar”, “26 fevral” günlərini yaşamış Azərbaycana qarşı kimsənin bir daha cəsarətlənə bilməməsi üçün xalqımızın tək yumruq kimi birlik günü idi.

Hələ seçki öncəsində kimin dost, kimin düşmən olduğunu bir daha tanıyan Azərbaycan bu seçimlərdə bir çox ilkəri yaşadı. Otuz il düşmən işğalı altında qalmış azad Qarabağda yaradılmış seçki məntəqələri, dövlət başçımızın ilk dəfə paytaxt Bakıdan kənarda, Xankəndidə səs verməsi, seçki qalibinin topladığı ən yüksək səs faizi, hətta ölkəsinin ərazi bütövlüyü pozulmuş xarici müşahidəçinin belə qalib gəlmiş cənab İlham Əliyev kimi özünə prezident arzulaması xalqımıza qarşı açıq və ya üstüörtülü şəkildə müharibə aparanların çirkin niyyətlərini ürəyində qoydu. Bununla belə Azərbaycandakı seçkinin qalibini ilk təbrik edən ölkə başçıları isə kənardan idarə olunmayan bir xalqın iradəsinə hörmət göstərməklə öz dövlətlərinin də müstəqil siyasət yürüdə biləcək gücdə olduğunu nümayiş etdirdilər. Çünki dünyadakı sağlam düşüncə yaxşı görür ki, Azərbaycandakı seçki zəfəri ölkəmizdən daha çox regiona, dünyaya lazımdır. Kimlərinsə dünyanı qarışdırmaqla öz iqtidarını qoruyub saxlamasından fərqli olaraq Azərbaycan kimi işğallardan, müharibələrdən əziyyət çəkən ölkələrə Qərbin “ixrac məhsulları”ndan daha çox birlik və sabitlik lazımdır. Qərbin dünya siyasi səhnəsindəki komik aktyorlarının ifasında hamıya yaxşı tanış olan səhnələr isə, ümumiyyətlə, heç kimə lazım deyil. Prezidentinin, yaxud baş nazirinin kəlləsində lax yumurta qırıb, qulağının dibini yumruqla qızardan xalqlardan Azərbaycana gələ biləcək dövlətçilik mədəniyyəti, yaxud iqtidar səriştəsinə bu dövrdə kimisə inandırmaq, sadəcə, gülüş doğurur.

Müstəqil Azərbaycan Respublikası tarixi bir dövrü arxada qoyub, yeni, daha məsuliyyətli dövrün astanasındadır. Ölkəmizin daha da güclənməsini istəməyən qüvvələrə qarşı yeni dövrün Azərbaycanı üçün daha intellektli, daha modern idarəetməyə, ölkəmizin sahib olduğu təbii, maliyyə və insan resurslarından daha rasional istifadəyə keçid ən zəruri məsələlərdəndir. Dövlət başçımızın müəyyən etdiyi yeni inkişaf yolunun xəritəsi qarşısında öz gələcəyini açıq görən Azərbaycan gənci məhz buna görə 7 fevral seçkilərində səsini Prezident cənab İlham Əliyevə verməklə XXI əsrin yeni Azərbaycanı üçün onunla həmrəy olduğunu bəyan etdi.

Bir qədər əvvəl dediyimiz kimi, qarşıdakı dövr Azərbaycan üçün olduqca əhəmiyyətli dövrdür. Qarabağın yenidən qurulması, Zəngəzur dəhlizinin açılması ilə Naxçıvana birbaşa kommunikasiyaların yaranması, ölkə iqtisadiyyatında yeni dövrün tələblərinə uyğun olaraq şaxələndirilmə aparılaraq neftdən asılılığın daha da azaldılması, yaşıl iqtisadiyyata keçid, alternativ və bərpa olunan enerji mənbələrindən istifadədə regionda liderə çevrilmək kimi qarşımızda mühüm vəzifələr vardır. Ölkəmizin müdafiə qabiliyyətinin daha da artırılması isə önümüzdəki illərdə bir nömrəli vəzifələrdən biri kimi xalqımızın hər bir nəfərini düşündürür. Bu yolda ən doğru seçimini etmiş Azərbaycan həmişə Qalib Prezidenti ilə yeni zəfərlər qazanacaq.

**Əli CABBAROV**
*iqtisad üzrə fəlsəfə doktoru*


Zəfər bayraqlı Lider 2

Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi ilə bağlı tədbir keçirilib 3

Nuhçıxandan Naxçıvana 5

Beş min ilin bir əsri... 8

100 illik şanlı tarix 9

Vüqarından güc aldığım, xilasının 100 yaşı mübarək! 11

Pəzmərıdə donmuş arzular 18

# Qalib Azərbaycan xalqıdır

Ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpasından doğan böyük qürur və fəxarət hissləri, yeni nailiyyətlər, yeni uğurlar qazanmaq amalı ilə şanlı tariximizin 2024-cü səhifəsinə qədəm qoyduq. Fevralın 7-də bütöv, qüdrətli Azərbaycan naminə qalib xalqın nümayəndələri olaraq alnıaçıq, üzüağ şəkildə getdik böyük imtahanımıza – prezident seçkilərinə. Səhərin erkənindən böyükdən-kiçiyə hər kəs öz vətəndaşlıq missiyasını yerinə yetirməkdən ötrü hamılıqla, ailəliklə axışdı ölkəmizin hər yerində – Şuşada, Xankəndidə, Naxçıvanda yaradılan onlarla məntəqənin önünə. Həmin gün dərin məhəbbətə, sevgiyə qərq olundu seçki qutuları. Qalib xalqın yekdil səsi bütün siyasi masalardan qalib ayrılan Liderə növbəti parlaq qalibiyyəti yaşatdı. Beynəlxalq təşkilatlar, ekspertlər tərəfindən səsləndirilən bəyanatlar Azərbaycanın seçki prosesində qabaqcıl təcrübənin tətbiqinin effektivliyini, demokratikliyin, şəffaflığın təmin olunduğunu bir daha göstərdi ölkəmizin firavanlığını, inkişafını gözü götürməyən qüvvələrə...

2023-cü ilə olduğu kimi, 2024-cü ilə də Müzəffər Liderin ***“Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik”*** imzası vuracaq öz möhürünü, heç şübhəsiz. Dövlət siyasətinin əsas prioritetləri kimi müəyyənləşdirilən hərbi qüdrətin artırılması və Qarabağın, Şərqi Zəngəzurun bərpası prosesi bu mübarək imzanın ziyasında daha da sürətlənəcək, Böyük Qayıdış məsələləri həllini tapacaq ən yüksək səviyyədə. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunan “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası sayəsində vaxtilə düşmən əlindən zinhara gələn, xarabalığa çevrilən, bir neçə ildir, doğmalarının nəvazişli əlləri, alın təri ilə yenidən həyata qaytarılan yaşayış məntəqələrimizin sırasında yeniləri yer alacaq, zəngilanlıların, füzulililərin, laçınlıların ardınca Xocalı, Xankəndi sakinləri də gülə-gülə dönəcək öz doğma ev-eşiyinə...

Sözsüz ki, bu ilin ən əlamətdar hadisələri sırasında Şuşa şəhərinin 2024-cü il üçün “İslam Dünyasının Mədəniyyət Paytaxtı” kimi statusu daşıması və Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi öncüllərdəndir. Böyük Qələbəmizin rəmzi sayılan Şuşa öz saf, pak, məsum qəlbini İslam dünyası incilərinə, mədəni zənginliyinə açacaq, dünyanın müxtəlif ölkələrinin sakinlərini, turistləri mehman edəcək təravətli qoynuna qədim sənət məbədgahımız. Pənahəli xanın, Molla Pənah Vaqifin, Xurşidbanu Natəvanın, Bülbülün ruhlarına müqəddəs dinimizin sədaları hüzur sığalı çəkəcək, Polad, Mübariz, Cəbrayıl, İslam, Pərviz, Rüfət kimi qanı ilə şərəf, ləyaqət dastanı yazan yüzlərlə igidimizin əziz xatirələri dünyanın dörd bir tərəfindən gələnlərin yaddaşlarına hörüləcək, Müzəffər Ali Baş Komandanın siyasi iradəsindən, qətiyyətindən, qəhrəman eloğullarının şücaətindən bəhs edəcək konfranslar, simpoziumlar.

Möhtəşəm təmtərağa, əsl bayram libasına bürünməkdədir 100-cü baharında Şərqin qapısı, Azərbaycanın döyünən ürəyi Naxçıvan. Barbəhrəli Şərur ellərindən, sınmayan vüqarımız, qeyrət qalası Sədərəkdən bağlar diyarı Ordubada, Ulu Öndər yadigarı Babəkə, Şərqə açılan qapı Culfaya, ömrünün 20-ci baharını yaşayan Kəngərliyə, təbiət gözəli Şahbuzadək hər addımda bir əsrlik tarixindən, mədəniyyətindən, mənəvi dəyərlərindən danışılmaqdadır ölkəmizin bu ululardan ulu yurdunun. Tədqiqatçıların, elm adamlarının fundamental istinad mənbəyinə, yaradıcı insanların ilham qaynağına çevrilir 100 ilin Naxçıvanı, şəninə şeirlər, poemalar yazılır bu möhtəşəm tarixi epoxanın.

“Yaşıl dünya naminə həmrəylik ili”ndə böyükdən-kiçiyə hər kəs bir xeyirxah amala – kainatı sağlamlaşdırmaq uğrunda mübarizəyə qoşulacaq, səfərbər olacaq, təbiət daha da canlanacaq, meşələrin qoynunda, qocaman ağacların əhatəsində minlərlə yeni fidanlar boy atacaq, bağ-bağçalar daha da parlaqlaşacaq zəhmətkeş əllərin nəvazişindən. “Yaşıl enerji zonası” elan olunan Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan bu zəngin potensialı ilə həm qlobal iqlim dəyişikliklərinə müsbət təsir göstərəcək, həm də Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verəcək, məmləkətləri nura qərq edəcək Azərbaycanın Günəşi, suyu, təbii sərvətləri...



2024 ölkə rəhbəri cənab İlham Əliyevin xarici siyasətinin, Azərbaycan diplomatiyasının daha bir uğurlu ili kimi yazılacaq müstəqillik tariximizin şanlı səhifələrinə. Qoşulmama Hərəkatına və BMT Təhlükəsizlik Şurasına sədrlikdən sonra növbəti mötəbər missiyasını – dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ev sahibliyini şərəflə, ləyaqətlə yerinə yetirəcək ölkəmiz. Bununla ərazi bütövlüyünün, suverenliyinin tam bərpasından sonra dünya miqyasında xüsusi imicə, etimada malik olduğunu tam bariz şəkildə göstərəcək Azərbaycan. Və eyni zamanda bu mühüm tarixi hadisə ölkə Prezidenti cənab İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində də dediyi kimi, ölkəmizin imkanlarının növbəti nümayişi olaraq düşəcək tarixə: ***“...bu günə qədər əgər COP tədbirlərini biz nəzərə alsaq, hətta Urban Forumu, adətən, inkişaf etmiş ölkələrdə, böyük ölkələrdə belə tədbirlər keçirilir. Çünki qonaqların sayına görə bu ən böyük tədbirdir, yəni Dubayda, təqribən, 70-75 min xarici qonaq var idi və bütün başqa amillərlə yanaşı, bu qədər qonağı qarşılamaq, şərait yaratmaq, bütün təşkilati məsələləri həll etmək böyük potensialdan xəbər verir. Yəni bu, ölkəmizin imkanlarının növbəti nümayişidir...”***

Qlobal proseslərin hökm sürdüyü, daxili çəkişmələrin baş aldığı, müharibələrin getdiyi kainatımızda “Azərbaycan” adlı dünyamızı gün ötdükcə daha da gözəlləşdirən Müzəffər Liderimizin “dəmir yumruğ”unun ətrafında sıx birləşməyimiz 2024-cü ildə də ölkəmizi yeni nailiyyətlərə, uğurlara aparacaq, heç şübhəsiz. Qalib Ali Baş Komandanın da dediyi kimi: ***“...Tarixi Zəfərimiz – İkinci Qarabağ müharibəsindəki Zəfər, antiterror əməliyyatı, işğalçılardan azad olunmağımız, separatçı rejimin çökməsi bütün azərbaycanlıları haqlı olaraq bir araya, bir yumruq halına gətirir. “Dəmir yumruq” bizim Zəfər salnaməmizin rəmzi idi. Bu gün, eyni zamanda “dəmir yumruq” birliyimizin rəmzidir və Azərbaycan xalqını, bütün dünya azərbaycanlılarını əmin etmək istəyirəm: “dəmir yumruq” hər zaman yerində olacaq...”***

✍ **Nail ƏSGƏROV**

# Zəfər bayraqlı Lider

Bu il keçirilən növbədənkənar prezident seçkilərində xalqımız növbəti dəfə rifaha, yeniliyə, inkişafa, tərəqqiyə səs verdi. Qalib xalqın, Qalib Liderinin “güclü dövlət” konsepsiyası bu illər ərzində Azərbaycanı qüdrətli, eyni zamanda dünyada sözü keçən dövlətə çevirdi. Bu güc hesabına 2020-ci ildə 44 gün ərzində Müzəffər Ali Baş Komandanın rəhbərliyi və ordumuzun şücaəti, qəhrəmanlığı hesabına uzun illər işğal altında qalan torpaqlarımız azad edildi, üçrəngli bayrağımız Şuşamızda, Kəlbəcərdə, Laçında, Xankəndidə və digər torpaqlarımızda əbədi dalğalandırıldı. Qazanılan uğurların təməlində, sözsüz ki, ölkə başçısının düşünülmüş, qətiyyətli, uzaqgörən, milli maraqlara əsaslanan daxili və xarici siyasəti dayanır.

Bu illər ərzində iqtisadi sahədə həyata keçirilən genişmiqyaslı islahatlar, xüsusilə ölkə iqtisadiyyatının əsasını təşkil edən neft və qaz sektorundan asılılığın azaldılması, iqtisadi artımı təmin edəcək sahələrə yerli və xarici investisiyaların qoyuluşu dinamik inkişafı təmin edib. Bunun nəticəsidir ki, son 20 ildə Azərbaycanda ümumi daxili məhsul istehsalı dörd dəfə artıb, qaz-enerji layihələrinin həyata keçirilməsi əhalinin rifahına öz müsbət təsirini göstərib. Bu iqtisadi güc hesabına məhz Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, keçmiş məcburi köçkünlər öz yurd-yuvalarına qayıdır, işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı, enerji, turizm və digər sahələrdə böyük potensial yaradılır.

Hərbi potensialın gücləndirilməsi istiqamətində yorulmadan çalışan Prezident cənab İlham Əliyev elə bir güclü ordu yaratdı ki, dörd il bundan əvvəl cəmi 44 gün ərzində düşmən məğlub olub kapitulyasiya aktına imza atmağa məcbur edildi, eyni zamanda ötən ilin sentyabr ayında antiterror əməliyyatı zamanı düşmən ağ bayraq qaldıraraq təslim oldu. Ötən dövr ərzində dövlət qayğısı ilə ölkəmizdə və onun ayrılmaz hissəsi olan muxtar respublikamızda hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilib, əsgəri-məişət-yaşayış kompleksləri tikilib, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılıb, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı əhəmiyyətli dərəcədə yüksəldilib. Bu illər ərzində ölkə iqtisadiyyatının, ordunun gücləndirilməsi, modernləşdirilməsi, döyüş qabiliyyətinin artırılması, qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq siyasi arenada da ölkəmizin nüfuzunu xeyli artırıb.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirmiş Azərbaycan döyüş meydanında qəhrəmanlıq dastanı yazdı. Hansı ki Prezident cənab İlham Əliyevin rəhbərliyi dövründə yetişmiş, formalaşmış qeyrətli Vətən oğullarımız çətin relyef şəraitində yorulmadan, tərəddüd etmədən addım-addım irəliləyərək misilsiz cəsarət, əzmkarlıq, vətənpərvərlik, fədakarlıq göstərdilər. Güllə yağışı altında sıldırım qayalara dırmaşaraq, əlbəyaxa döyüşlə Şuşanı işğalçılardan azad etməklə xalqımıza böyük Zəfəri bəxş etdilər. Dövlət başçısının “Qarabağ Azərbaycandır!” çağırışı ilə böyük Zəfərə aparan diplomatiyası hələ uzun illər bütün dünya tərəfindən araşdırma mövzusu olacaq.

Prezident cənab İlham Əliyev ötən il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldarkən dedi: ***“Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”***

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların ailə üzvlərinə, Azərbaycan Ordusunun hərbçilərinə, qazilərə daim xüsusi diqqət və qayğı göstərib. Onların sosial müdafiəsinin gücləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər bunun bariz nümunəsidir. Bu gün də bu işlər bütün bölgələrimizdə, eləcə də muxtar respublikamızda uğurla davam etdirilir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev ***“Mən ona özüm qədər inanıram”***, – deyəndə məhz Prezident cənab İlham Əliyevin bu gün Azərbaycan dövləti və xalqı qarşısındakı göstərəcəyi və bu gün gördüyümüz tarixi, misilsiz xidmətlərini uzaqgörənliklə ifadə etmişdi. Zaman da göstərdi ki, yalnız Heydər Əliyev yolu, Heydər Əliyev siyasi kursunun layiqli davamı ölkəni aydın, işıqlı sabahlara çıxara bilər. Bu illər ərzində Ulu Öndərin siyasətinə, onun tarixi irsinə hörmət göstərən, daim Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edən, Azərbaycanın ərazi bütövlüyünü qoruyan dövlət başçısı cənab İlham Əliyev xalqımıza verdiyi bütün sözləri tutdu, vədləri yerinə yetirdi. Qədirbilən, müdrik xalqımız da 7 fevralda keçirilən növbədənkənar prezident seçkilərində rəhbərinin yanında oldu, onun uğurlu daxili və xarici, Qarabağda aparılan “Böyük Qayıdış” siyasətinə səs verdi. Xalqının əbədi sevgisini qazanan Qalib Liderin uzaqgörən siyasəti xalqımızı daha böyük Zəfərlərə doğru aparır.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi ilə bağlı tədbir keçirilib





Fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi ilə bağlı tədbir keçirilib.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov, Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov, digər rəsmi şəxslər və ictimaiyyət nümayəndələri tədbirdə iştirak ediblər.



Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət ediblər. Abidə önünə güllər düzülüb, Ulu Öndərimizin xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbir Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında davam edib.

Səlahiyyətli nümayəndə, dövlət və hökumət nümayəndələrinə Sarayın foyesində Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə bağlı hazırlanmış veb-saytı, poçt markası, posterlər təqdim edilib.

“Şərq qapısı” qəzeti tərəfindən təşkil olunmuş fotosərgidə tədbir iştirakçıları muxtar respublikanın 100 illiyi ilə əlaqədar,





eləcə də diyarımızın zəngin təbiətini, çox-əsrlik tarixini və təkrarsız abidələrini əks etdirən fotolara baxıblar.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın, Baş nazir Əli Əsədov, eləcə də digər rəsmi şəxslərin muxtar respublikanın 100 illik yubileyi münasibətilə təbriklərini çatdırıb.

Naxçıvan Muxtar Respublikasının 100 illiyinin Azərbaycanın bütövlüyü və suverenliyi təmin olunmuş şəkildə qeyd olunmasını xüsusi xoşbəxtlik kimi dəyərləndirən Fuad Nəcəfli Prezident İlham Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik edib, ali dövlətçilik fəaliyyətində yeni uğurlar arzulayıb.

Səlahiyyətli nümayəndə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il dekabrın 30-da “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında” imzaladığı Sərəncama əsasən bu il ərzində əlamətdar tədbirlərin keçiriləcəyini diqqətə çatdırıb.

Fuad Nəcəfli muxtariyyət tarixinə nəzər salaraq vurğulayıb ki, 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən 2 mühüm beynəlxalq sənəd – Moskva və Qars müqavilələri imzalanıb, muxtariyyətin əsasları, eyni zamanda Naxçıvan Muxtar Respublikasının ərazisi təsdiq olunub, bu ərazinin beynəlxalq müqavilələrlə qorunan toxunulmazlıq hüququ təsbit edilib. 1921-ci ilin martında Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan Naxçıvan diyarı təşkil olunub. Nəhayət, 1924-cü il fevralın 9-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə Naxçıvan diyarı Naxçıvan MSSR-ə çevrilib.

1990-1993-cü illərdə Ümummilli Liderin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi Naxçıvanı erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas edib. Ulu Öndərin rəhbərliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan parlamentinin iclasında müstəqil dövlətçilik tariximizlə bağlı mühüm tarixi qərarlar qəbul olunub, muxtar respublikanın adından “sovet sosialist” sözləri çıxarılıb, Ali Sovetin adı dəyişdirilib, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılıb, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunub və onun Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi barədə Azərbaycan Respublikasının Ali Soveti qarşısında vəsatət qaldırılıb. Azərbaycan müstəqillik əldə etdikdən sonra Ümummilli Liderimiz Heydər Əliyevin 1999-cu il 4 fevral tarixli Fərmanı ilə Naxçıvanın 75 illik yubileyi geniş qeyd olunub.

2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin digər bölgələri kimi, Naxçıvan Muxtar Respublikasında da mühüm infrastruktur tədbirləri həyata keçirilib, sosial-iqtisadi inkişaf təmin edilib, muxtar respublikanın müdafiə potensialı gücləndirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə Naxçıvan Muxtar Respublikasının 80, 85 və 90 illik yubileyləri dövlət səviyyəsində geniş qeyd olunub, 100 illik yubileylə bağlı imzaladığı Sərəncamda da vurğulandığı kimi, Naxçıvan Muxtar Respublikasının yaranması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsi kimi yüksək qiymətləndirilib.

2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi ədalətin bərpa olunmasında və 2023-cü il 19-20 sentyabr tarixlərində Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirlərində Naxçıvanın igid oğulları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazıblar. Beləliklə, istər tarixi qələbəmiz, istərsə də dövlətimizin suverenliyinin onun bütün ərazisində bərpa olunması regionda yeni reallıqlar yaratmaqla bərabər, Zəngəzur dəhlizinin açılması perspektivində Naxçıvan Muxtar Respublikasının ölkəmizin digər bölgələri ilə quru əlaqəsini də təmin edəcəkdir. Ölkə Prezidentinin diqqət və qayğısının nəticəsi olaraq Naxçıvanda müasir idarəetmə modelinin tətbiqi, aparılan institusional islahatlar, nəqliyyat imkanlarının genişləndirilməsi, Azərbaycanda ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublikanın “yaşıl enerji zonası” elan olunması, bütün bunların yekunu olaraq isə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın qəbul olunması Naxçıvanda yeni inkişaf mərhələsinin əsasını qoyub.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı verdiyi Sərəncama görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirib, yubiley münasibətilə muxtar respublika əhalisini təbrik edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov çıxışında bildirib ki, “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı muxtariyyətin Azərbaycan dövlətçiliyində oynadığı rola verilən yüksək qiymətdir. Naxçıvanın milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətlərinin olması, strateji mövqeyi ilə seçilməsi tarixən onu vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyarın qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etməsinin Sərəncamda qeyd olunmasını xatırladan Anar İbrahimov bununla da ölkə başçısı cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının yaranmasını Azərbaycanın siyasi tarixinin əhəmiyyətli hadisəsi kimi qiymətləndirməsinin göstəricisi olduğunu bildirib. Dövlət başçısının Sərəncamı Naxçıvan Muxtar Respublikasının “yaradılması” deyil, məhz “yaranması” ifadəsini işlətməsi onun Naxçıvanın muxtariyyət statusunun qazanmasını kiminsə, ya da kimlərinsə fəaliyyəti deyil, bütövlükdə, tarixi və siyasi proseslərin

*Ardı 4-cü səhifədə*





məntiqi davamı kimi qiymətləndirməsinin təzahürü, siyasi irsə, xüsusilə də Ulu Öndər Heydər Əliyevin siyasi irsinə verilən qiymət və sayğının nümunəsidir.







Həqiqətən də, Naxçıvan əhalisi, həmin dövrün demokratik ruhlu ziyalıları bölgənin təhlükəsizliyinə, erməni ekspansionistlərinin hərbi basqınlarına qarşı mərdliklə mübarizə aparmış, qanları bahasına qədim diyarı qorumuşlar. Hələ 1918-ci ildə Naxçıvan Milli Şurası Xalq Cümhuriyyəti hökumətinə yazdığı məktubda göstərirdi ki, “Biz ermənilərə tabe olmuruq, tezliklə Azərbaycan qoşunları tərəfindən Zəngəzurun azad edilməsini və Naxçıvanın Azərbaycana birləşməsini gözləyirik”. Naxçıvan İnqilab Komitəsinin Azərbaycan hökumətinə 1920-ci il 10 avqust tarixli məktubunda da bildirilirdi: “Əhalinin yekdil qərarı ilə Naxçıvan özünü Azərbaycanın ayrılmaz hissəsi hesab edir”.







Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov qədim, zəngin, çoxəsrlik tarixə, mədəniyyətə, dövlətçilik ənənələrinə malik və “Şərqin qapısı” adlandırılan Naxçıvanın keçdiyi çətin, eyni zamanda şərəfli inkişaf yolundan bəhs edib. Bildirib ki, Naxçıvanın muxtariyyətinin 2 mərhələsi xüsusilə çətin və mürəkkəb dövr olub. Bunlardan biri 1920-1924-cü illəri əhatə edən muxtariyyətin yaranması, digəri isə 1990-1993-cü illərdə muxtariyyətin qorunub saxlanıldığı dövrdür.

1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaradılması bu qədim diyarın gələcək müqəddəratının həlli, ölkəmizin ərazi bütövlüyünün təmin olunması baxımından çox mühüm siyasi əhəmiyyətə malikdir. Bu mənada, Ulu Öndər Heydər Əliyevin Naxçıvanın Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi muxtariyyəti böyük tarixi nailiyyət adlandırması təsadüfi deyil. Muxtariyyət dövründə ikinci çətin mərhələ isə 1990-cı ildə Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınması olub. Həmin dövrdə Naxçıvan Ümummilli Liderimizin də dediyi kimi: ***“Taleyin ümidinə buraxılmış tənha bir adanı xatırladırdı”.*** Bu gündən 33 il əvvəlki tarixə nəzər saldıqda açıq şəkildə görmək olur ki, Ulu Öndər o zaman Naxçıvana qayıtmasaydı, Naxçıvan da Qarabağ kimi işğala məruz qalacaqdı.

Səbuhi Məmmədov qeyd edib ki, bu gün Naxçıvan qalib Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi bölgə maraqlarından çıxaraq Şərq-Qərb tranzitində açar rolunu oynayan region kimi diqqət çəkir. Zəngəzur dəhlizinin açılması isə Naxçıvan Muxtar Respublikasının Türk dünyasına açılan bir qapı kimi rolunu artıracaq. Zəngəzur dəhlizi Türk dünyasının bütün ölkələrini Avropa və Asiya ilə birləşdirməklə əlaqələrinin genişləndirilməsində böyük rol oynayacaq. Bununla da gələcəkdə regionda sosial-iqtisadi münasibətlər daha da genişlənəcək. Zəngəzur dəhlizinin açılmasından sonra mühüm nəqliyyat habına çevriləcək qədim diyar həm də Cənubi Qafqazın iqtisadi inkişafına və təhlükəsizliyinə öz töhfəsini verəcək.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti İsa Həbibbəylinin, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin və Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi Hacıfəxrəddin Səfərlinin çıxışları dinlənilib. Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident cənab İlham Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının inkişafına hər zaman böyük həssaslıqla yanaşıb, zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik bu qədim diyarın muxtariyyət tarixinin öyrənilməsinin və təbliğinin zəruriliyini mühüm vəzifə kimi qarşıya qoyub.

Sonra Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş videoçarx və Naxçıvan televiziyasının hazırladığı “Ulu torpaq, Ulu Öndər” filmi nümayiş etdirilib.

Tədbir bədii hissə ilə davam edib.

**“Şərq qapısı”**



## Naxçıvan Muxtar Respublikasının 100 illik yubiley loqotipi təsdiq edilib

Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” 2023-cü il 30 dekabr tarixli Sərəncamına əsasən muxtar respublikanın yubileyinin keçirilməsi ilə bağlı yaradılan təşkilat komitəsi üzvlərinin seçimi ilə Naxçıvan Muxtar Respublikasının 100 illik yubiley loqotipi təsdiq edilib. Loqotipin müəllifi Naxçıvan Rəssamlar Birliyinin üzvü Nahid Əliyevdir.

Loqotipdə Naxçıvanın rəmzi olan Möminə xatın türbəsinin naxışları ilə əks etdirilən 100 rəqəminin aşağı hissəsində bayraq rənglərindən istifadə olunub. Loqotipin sol aşağı hissəsində isə “1924-2024 Naxçıvan Muxtar Respublikası” sözləri yazılıb.

Burada, ilk növbədə, 100 rəqəmi diqqəti cəlb edir. Bu, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ilini ifadə edir. 100 rəqəmindəki “1” rəqəmi həm də Möminə xatın abidəsini xatırladır. Rəqəmdəki sıfır işarələri isə həm də dairəni xatırlatdığından irəli, hərəkətə aid simvollardır.

Loqodakı bayraq rənglərini əks etdirən yol irəli getməyi göstərir. Loqonun sol aşağısında həm “Naxçıvan Muxtar Respublikası” sözləri yazılmış, həm də “1924-2024” rəqəmləri verilmişdir. Bunlar loqonun mahiyyətinin göstəricisidir.



# Nuhçıxandan NAXÇIVANA

**İsa HƏBİBBƏYLİ**
***AMEA-nın prezidenti,***
***Milli Məclisin deputatı,***
***akademik***

Naxçıvan diyarı tarixin bütün dövrlərində Azərbaycanın ayrılmaz üzvi tərkib hissəsi olmuşdur. Ən qədim dövrlərdən karvan yollarının, Böyük İpək Yolunun üzərində, Şərqlə Qərbin çarpazlaşdığı bir nöqtədə yerləşməsi Naxçıvanı dünyaya tanıtmaqla bərabər, həm də bu diyarda şəhərsalma və ticarətlə yanaşı, elmin, sənətkarlığın, mədəniyyətin də inkişafına böyük təkan vermişdir. Naxçıvandan Şərqə: Təbriz-Həmədan-Məşhəd-Aşqabad marşrutu bu regiona Türk-müsəlman dünyası sivilizasiyasının axınlarını, buradan Qərbə: İrəvan-Tiflis, Batum-Ərzurum Trabzon-İstanbul, yaxud Tiflis-Rostov-Moskva-Peterburq-Varşava yolları isə bura Avropa maarifçiliyini gətirmişdir. Şərqdən gələn türk-müsəlman təfəkkürü ilə Qərbdən daxil olan ticarət-maarifçi düşüncəsinin çarpazlaşması və üzvi sintezi Azərbaycanın bu diyarında millilik və dünyəvilik baxışlarının üstünlük qazanmasını təmin etmişdir. XII-XIII əsrlərdə isə Azərbaycan Atabəyləri dövlətinin paytaxtı kimi fəaliyyət göstərməsi isə bu regionda dövlətçilik təfəkkürünün formalaşdırılmasına ciddi təsir göstərmişdir. Bu, Azərbaycanın qədim karvan yollarının, Böyük İpək Yolunun üzərində yerləşmiş digər bölgələri Bakı, Gəncə, Şamaxı və sair şəhərləri üçün də xarakterik idi. Beləliklə, millilik, dünyəvilik, dövlətçilik və maarifçilik üstündə köklənmiş Naxçıvanda Şərq-Qərb sənət ənənələrinin qovşağında yaradılmış böyük mədəniyyət meydana çıxmışdır.

Dünya şöhrətli memar Əcəmi Naxçıvaninin XII əsrdə Azərbaycan qadınının şərəfinə Möminə xatın adlı möhtəşəm abidə ucaltması Naxçıvanda formalaşmış özünəməxsus ictimai-mədəni ənənələrin nəticəsi idi. Eyni zamanda Möminə xatın məqbərəsində İslam dəyərlərini əks etdirən müqəddəs kəlamların riyaziyyat, həndəsə elmlərinin əsasında müəyyən edilmiş simmetriya vasitəsilə ifadə olunması da dini dəyərlərlə elmi baxışların vəhdəti sayəsində mümkün ola bilmişdir. Yaxud Atabəylər dövründə Naxçıvanda fəaliyyət göstərən ali dini mədrəsədə dəqiq və təbiət elmlərinin də geniş tədris edilməsi buradakı dünyəvi yönlü inkişaf meyillərinin göstəricilərindəndir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” 2023-cü il 30 dekabr tarixli Sərəncamında öz əksini tapmış aşağıdakı fikirlər Naxçıvanın Azərbaycanın tərkib hissəsi olaraq tarixi mövqeyini siyasi cəhətdən qiymətləndirən obyektiv reallıqların ifadəsidir: *“Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri-Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır”.*

Göründüyü kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mühüm tarixi əhəmiyyətə malik olan Sərəncamında Naxçıvanın sivilizasiyanın inkişafındakı roluna da diqqət verilmişdir. Həqiqətən də, aparılan tədqiqatlar sübut edir ki, Naxçıvan bəşər sivilizasiyasının ilk məskənlərindən biridir. Naxçıvan Dünya tufanı hadisəsinə şahidlik edən coğrafi məkandır. Kiçik Qafqaz dağları silsiləsinin 3906 metrlik ən uca nöqtəsi olan Qapıcıq zirvəsi həzrəti Nuh Peyğəmbərin əfsanəvi gəmisinə torpağa enmək üçün açılmış ilk qapıdır. Dünya mifologiyasında Türkiyə ərazisindəki Ağrı dağı, Suriya sərhədindəki Cüdü dağı kimi, Naxçıvandakı Gəmiqaya da ilkin sivilizasiyanın nişanələrindən biri kimi qəbul olunur. Bu mənada, Qapıcıq zirvəsindəki Gəmiqayadan qaynayıb çıxan Baca bulağı sanki insanlığı Dünya tufanından xilas etmiş Nuh Peyğəmbərin şərəfinə qaldırılmış həyat piyaləsinə bənzəyir. Gəmiqaya ətəklərindəki Haçadağ-İlandağ isə Nuh Peyğəmbərin Dünya tufanının başa çatdığını və bəşəriyyətin yeni həyatının başlandığını elan etdiyi möhtəşəm xitabət kürsüsü – İlan dağı təəssüratı yaradır.

Gəmiqayanın yüksək ətəklərindəki Nəbi yurdu (Nəbi – peyğəmbər deməkdir – İ.H.) – Nuh Nəbi yurdu, Naxçıvan şəhəri ətrafındakı Nuhdaban yaşayış yeri Dünya tufanından sonra artıq burada ilkin məskunlaşmanın başlanmasından xəbər verir. Bu isə Naxçıvanın təkallahlıq dini olan tanrıçılığın da əsas məskənlərindən biri olduğunu göstərir. Sonralar tenqriçilik – tanrıçılıqla İslam dininin əsaslandığı təkallahlıq bir-birini tamamladığı üçün Naxçıvandakı Əshabi-kəhf ziyarətgahı müsəlman dünyasının müqəddəs ziyarət yerlərindən biri kimi tanınmışdır. Naxçıvandakı Duzdağ mədənlərindən tapılmış daş baltalar və çapacaqlar da bu regionda daş dövründən başlayan istehsal münasibətlərini nəzərə çatdırır.

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi bu qədim diyarın Azərbaycana və dünyaya bəxş etdiyi görkəmli tarixi şəxsiyyətlər haqqında da söz açmaq üçün əsas verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında”kı Sərəncamında da Naxçıvanın əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr verməsi xüsusi olaraq qeyd edilmişdir. Böyük İpək Yolunun üzərində yerləşdiyi üçün Şərqin və Qərbin təhsil mərkəzlərinə yaxın olması, yerli təhsil sistemində isə dini və dünyəvi elmlərin birgə öyrədilməsinə xüsusi diqqət yetirilməsi Naxçıvandan görkəmli siyasət, elm və mədəniyyət xadimlərinin çıxmasını təmin etmişdir. Qədim dövr və orta əsrlərdə Naxçıvanda yetişib-formalaşmış adlı-sanlı ictimai-siyasi xadimlər, tanınmış elm və ədəbiyyat nümayəndələri Azərbaycanın dünyada nüfuzlu bir ölkə kimi tanınmasına xidmət göstərmişlər. Məlum olduğu kimi, Türk-müsəlman dünyası miqyasında geniş yayılmış hərəkata çevrilmiş Fəzlullah Nəimi həyatının böyük bir dövrünü Naxçıvanda yaşamışdır. Elxanilər hakimiyyətinin vəziri olmuş görkəmli elm xadimi, “Darüş-Şəfa” Akademiyasının banisi Nəsirəddin Tusinin də ata nəsli Ordubaddandır. Nəsirəddin Tusi Azərbaycan elm tarixində ən universal zəkadır, Azərbaycanın Aristotelidir. Soyadından göründüyü kimi, I Şah Abbasın baş vəziri kimi tanınmış Hatəm bəy Ordubadi isə dövlətçilik və ədəbiyyat sahələrində məsuliyyətlə xidmət etmişdir. Mənbələrdə Hatəm bəy Ordubadinin dövlətçilikdə göstərdiyi sədaqətə və bacarığa görə Şah Abbasın Ordubad bölgəsinin əhalisini vergidən azad etməsinə dair məlumatlar vardır. “Bütün elmlərdə və fənlərdə dalğalı dənizə və yağışlı buluda” bənzədilən Nəcməddin Naxçıvani (XIII əsr), tibb sahəsində məşhur olmuş Kəmaləddin Naxçıvani (XIII əsr), görkəmli ədəbiyyatşünas Fəxrəddin ibn Hinduşah Naxçıvani (XIV əsr), məşhur filosof Baba Nemətullah Naxçıvani (XV əsr), dövrünün məşhur xəttatı Xacə Ətiq Ordubadi (XVI əsr), tanınmış salnaməçi Məhəmməd İbrahim Nəsiri (XVII əsr), təbabət elmində xüsusi xidmətləri olmuş İbrahim Zeynəddin Naxçıvani (XVII əsr) Azərbaycan elmini və ədəbi-ictimai fikrini yüksək səviyyədə təmsil etmiş, xalqımızın və ölkəmizin adını uca tutmuşlar.

Azərbaycanın görkəmli maarifçi ziyalıları və ədibləri sferalarında da Naxçıvan torpağının yetirmələri olan böyük simalar: Məhəmməd ağa Şahtaxtlı, Cəlil Məmmədquluzadə, Məhəmməd Tağı Sidqi, Eynəli bəy Sultanov, Məmmədqulu bəy Kəngərli, Mirzə Əbülqasım Sultanov və başqaları yeni məktəb, milli mətbuat, böyük ədəbiyyat uğrunda mübarizə aparmışlar. Cəlil Məmmədquluzadənin nəşr etdirdiyi “Molla Nəsrəddin” jurnalı nəinki Qafqazda məşhur olmuş, Rusiyada və Avropada, İranda və Orta Asiyada, hətta Hindistanda da böyük əks-səda doğurmuşdur. Məmməd Səid Ordubadi Azərbaycan ədəbiyyatında tarixi roman janrının əsasını qoymuşdur. Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas yaradıcılarından olan Hüseyn Cavidin dram əsərləri ölkəmizdə teatr mədəniyyətinin inkişaf etdirilməsində mühüm rol oynamışdır.

Azərbaycan Elmlər Akademiyasının prezidenti, akademik Yusif Məmmədəliyev dünyada neft kimyası elminin əsas yaradıcılarından biri kimi qəbul olunur. Azərbaycançılıq Vətənə, xalqa və dövlətə sədaqət, ölkə dəyərlərini qorumaq və yaşatmaq bu görkəmli elm və ədəbiyyat xadimlərini səciyyələndirən əsas xüsusiyyətlərdir. Harada doğulub yaşamasından asılı olmayaraq, onlar Azərbaycan adlı müqəddəs vətənə və Azərbaycançılıq idealına xidmət etməyin nümunəsini göstərmişlər. Sovet hakimiyyəti illərində bu diyardan çıxmış İslam Səfərli, Məmməd Araz, Hüseyn İbrahimov, Müzəffər Nəsirli, Əlyar Yusifli, Kəmalə və başqaları kimi tanınmış şair və yazıçılar Azərbaycan ədəbiyyatının daha da zənginləşdirilməsi və inkişaf etdirilməsi yollarında şərəflə xidmət göstərmişlər.



Coğrafi cəhətdən çətin və mürəkkəb bir ərazidə yerləşən Naxçıvan tarixin müxtəlif dövrlərində böyük müharibələrin, köçürmələrin, dağıntıların, təzyiqlərin şahidi olmuşdur. Qədim Türk-Oğuz yurdu olan bu diyar müxtəlif əsrlərdə haqsız-əsassız ərazi iddiaları ilə üz-üzə qalmışdır. Belə məqamlarda bir neçə xarici ölkənin qonşusu olan Naxçıvan əhalisini birlik, həmrəylik və vətənpərvərlik xilas etmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında”kı Sərəncamında da məsələnin bu cəhəti xüsusi olaraq qeyd edilmişdir: *“Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir”.* Tarixin belə sınaq dərslərindən bir neçəsi xüsusilə ibrətamiz, əhəmiyyətli və taleyüklü olması ilə səciyyələnir. Məsələn, XVIII əsrin II yarısında Naxçıvan xanlığına rəhbərlik edən Kalbalı xan Naxçıvanski mürəkkəb ictimai-siyasi vəziyyətdə İranla Rusiya arasında ortaq bir mövqe tutaraq Azərbaycanın bu bölgəsinin işğal edilməsi təhlükəsini aradan qaldırmışdır. Daha bir ciddi sınaq XX əsrin əvvəllərində meydana çıxmışdır. Məlum olduğu kimi, sovet bolşevik Rusiyası Naxçıvanı Ermənistana vermək üçün müxtəlif siyasi oyunları həyata keçirmişdir. Qərbi Zəngəzurun işğal edilib Ermənistan ərazisinə qatılması Azərbaycanın Türkiyə ilə əlaqələrinin kəsilməsinə xidmət etməkdən başqa həm də Naxçıvanı Azərbaycanın əsas ərazisindən aralı salmaqla, tədricən bu regionu Ermənistana

*Ardı 6-cı səhifədə*

vermək məqsədi daşımışdır. Bolşeviklərin Azərbaycanı işğal etdikdən sonra 1920-ci ilin iyul ayında bu diyarın ayrıca, müstəqil dövlət subyekti olaraq Naxçıvan Sovet Sosialist Respublikası kimi elan etmələrinin də arxasında Kremlin Ermənistana yönəlik maraqları dayanırdı. Təəssüf ki, o zaman mərkəzin siyasi konyunkturasının, məkrli erməni oyunlarının əsl mahiyyətinə lazımi diqqət yetirməyən bəzi Azərbaycan bolşevikləri də sovet dövlətinin irəli sürdüyü süni, zahiri beynəlmiləlçilik tezislərinə aldanaraq Naxçıvanın Ermənistan Sovet Respublikasının ərazisinə qatılması cəhdinə etinasız yanaşmışlar. Belə çətin məqamda Azərbaycan Sovet Respublikasının ədliyyə naziri vəzifəsində çalışan Behbud ağa Şahtaxtinskinin rəsmi vəzifə daşımasına baxmayaraq, icazə almadan Naxçıvana gələrək yerli əhali arasında həmin qərarla razılaşmamaq və referendum keçirilməsi təklifi ilə çıxış etmək ideyasının irəli sürülməsinə nail olması Naxçıvan diyarının real təhlükədən xilas edilməsində həlledici rol oynamışdır. Yerli əhalinin təkidli tələbi ilə 1920-ci ilin yanvar ayında keçirilmiş həmin referendumda Naxçıvanın Azərbaycanın tərkibində qalması müddəası 90 faizlik səs qazanmışdır.

Nəhayət, 13 oktyabr 1921-ci il tarixdə Türkiyənin Qars şəhərində imzalanmış beynəlxalq statusa malik Qars müqaviləsi ilə Naxçıvan muxtariyyət statusu qazanmış, toxunulmazlıq əldə edə bilmişdir. Naxçıvan Muxtar Respublikasının 9 fevral 1924-cü il tarixdə tamamlanan 100 illiyi Qars müqaviləsinin təntənəsidir. Naxçıvan diyarının xilas edilməsinin muxtariyyət statusu qazanmasına siyasi-hüquqi təminat verən və zərurət yaranarsa, hətta Türkiyə tərəfindən hərbi müdaxilənin mümkünlüyünü qanuniləşdirən Qars müqaviləsində Türkiyəni təmsil edərək Kazım Qarabəkir paşa ilə yanaşı, Azərbaycan Sovet Respublikasının təmsilçisi Behbud ağa Şahtaxtinskinin imzaları vardır.

Naxçıvan Muxtar Respublikası üçün növbəti dəfə Ermənistan ərazisinə qatılmaq təhlükəsi XX əsrin əllinci illərinin ikinci yarısında meydana çıxmışdır. Bu zaman Kremldə yüksək mövqe tutan Anastas Mikoyan SSRİ-nin rəhbəri Nikita Xruşşovu Naxçıvanı Ermənistan ərazisinə qatmaq barədə razı salmışdı. Həmin dövrdə vətənpərvər ziyalı, Azərbaycan Dövlət Universitetinin müəllimi Abbas Zamanov Bakı şəhərində keçirilən mötəbər iclaslardan birində cəsarətlə bu məsələləri səsləndirmiş və özünün kəskin etirazını bildirmişdir. Kommunist Partiyası sıralarından çıxarılan və universitetin müəllimi vəzifəsindən azad edilən Abbas Zamanovun etirazı dalğa-dalğa Sovet İttifaqına yayıldığı üçün Kreml rəhbərləri mövqelərindən əl çəkməli olmuşdular. Yeri gəlmişkən deyək ki, görkəmli dövlət xadimi Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə Abbas Zamanovu Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinə direktor təyin etmiş, ona "Əməkdar elm xadimi" fəxri adı vermişdir. Professor Abbas Zamanov da, öz növbəsində, Ulu Öndər Moskvadan Azərbaycana gəldikdə Bakıdan Naxçıvana səfər edərək Azərbaycanın böyük oğlunu ata ocağında ziyarət etmişdir.

Zaman XX əsrin 80-ci illərinin sonu və 90-cı illərinin əvvəlində Naxçıvan Muxtar Respublikasını yenidən taleyüklü sınağa çəkmişdir. SSRİ-nin dağılmağa doğru getməsi fürsətindən istifadə edən Ermənistan Kremldə ermənilərlə əhatə olunmuş Mixail Qorbaçovla münasibətlərindən istifadə edərək Qarabağı işğal etməklə bərabər həm də Naxçıvana qarşı ərazi iddialarını yenidən gündəmə gətirmişdir. Əsas ərazisi üç tərəfdən Ermənistanla sərhəd olan Naxçıvana erməni-rus hərbçilərinin birgə hücumları Naxçıvanı itirilmək təhlükəsi qarşısında qoymuşdu. Azərbaycan hakimiyyətinin barışdırıcı, seyrçi və laqeyd münasibəti Qarabağda olduğu kimi, Naxçıvanda da ağır və mürəkkəb hərbi-siyasi vəziyyət yaratmışdı. Bu zaman SSRİ rəhbərliyindən istefa verməyə məcbur edilmiş, eyni zamanda Azərbaycan rəhbərliyi tərəfindən Bakı şəhərində yaşamasına icazə verilməmiş görkəmli dövlət xadimi Heydər Əliyevin taleyin hökmü ilə Naxçıvana gəlməsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik etməsi muxtar respublikanın erməni işğalından xilas edilməsində həlledici addım olmuşdur. Bundan əvvəl, 1990-cı ilin yanvar ayında Bakı şəhərində sovet rəhbərliyi tərəfindən törədilmiş qırğınlara və ilk şəhidlərin verilməsi ilə nəticələnən Sədərək ərazisinə silahlı hücumlara etiraz əlaməti olaraq Naxçıvan Muxtar Respublikası Ali Sovetinin SSRİ-nin tərkibindən çıxmaq haqqında qəbul etdiyi sərt tarixi qərardan narazı qalan SSRİ rəhbərliyi Naxçıvanı Azərbaycandan təcrid edərək blokada vəziyyətinə salmaqla regionda vəziyyəti kəskinləşdirmişdi. Dünya miqyasında böyük nüfuza və zəngin təcrübəyə malik olan görkəmli dövlət xadimi kimi qəbul edilən Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi həyata keçirdiyi qətiyyətli və düşünülmüş tədbirlər Kremlin və Ermənistanın niyyətlərinin qarşısını almışdır.

Ümummilli Lider Heydər Əliyevin qardaş Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə yaratdığı əlaqələr, beynəlxalq statusa malik Qars müqaviləsinin müddəalarının beynəlxalq ictimai mühitin gündəminə gətirilməsi, sovet ordusu hissələrinin Naxçıvandan dinc yolla çıxarılması və muxtar respublikada Dövlət Müdafiə Komitəsinin yaradılması, ən başlıcası isə xalqın dahi şəxsiyyətə bəslədiyi sarsılmaz inam Naxçıvanı erməni işğalından xilas etdi. Azərbaycan xalqına şərəflə və yüksək ləyaqətlə xidmət etmiş, respublikamızı bütün sahələr üzrə inkişaf etdirmiş, xalqımızı dünyaya tanıtmış Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı ən böyük tarixi xidmətlərindən biri də XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını Ermənistanın işğalı təhlükəsindən xilas etməsindən ibarətdir. Bununla Ulu Öndər Ermənistanın XIX əsrin əvvəllərindən davam edən Naxçıvana dair ikiyüzillik işğalçılıq planlarına son qoymuşdur. Heydər Əliyevin Naxçıvanı erməni işğalı təhlükəsindən xilas etməsi nəticə etibarilə həm də Azərbaycan Respublikasının bu regionda ərazi bütövlüyünün qorunub saxlanılması demək idi. Ulu Öndər Heydər Əliyev "tarixi nailiyyət" hesab etdiyi Naxçıvanın muxtariyyət statusunu da "buranı qoruyub saxlamaq... və Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılmasına xidmət edən böyük amil" kimi yüksək qiymətləndirmişdir. Azərbaycan rəhbərlərinin yarıtmaz, bacarıqsız, itaətkar fəaliyyətləri sayəsində Qarabağın işğal edilməsi fonunda Heydər Əliyevin həm SSRİ rəhbərliyi, həm də Azərbaycan hakimiyyətinin real təzyiqləri ilə üz-üzə qaldığı çətin və mürəkkəb şəraitdə Kreml tərəfindən hərbi dəstək alan Ermənistanın işğalçılıq planlarını dağıdaraq Naxçıvan Muxtar Respublikasında nail olduğu Azərbaycanın ərazi bütövlüyü məsələsi əsl dövlətçilik və qəhrəmanlıq hadisəsidir. Sözün əsl mənasında, görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının xilaskarıdır. Ümummilli Lider xalqın tələbi ilə 1993-cü ildə müstəqil dövlətin rəhbəri seçildikdən sonra daha geniş miqyasda Azərbaycan xalqının və müstəqil dövlətimizin xilaskarı olmaq missiyasını da uğurla həyata keçirmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarının ərazi bütövlüyünün qorunub saxlanılması, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin deputatı kimi 17 noyabr 1990-cı ildə, hələ SSRİ-nin mövcud olduğu dövrdə ali qanunverici orqanın iclasında üçrəngli bayrağın dövlət rəmzi kimi qəbul edilməsi görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik ideallarına dərin sədaqətinin əməli ifadəsi olan mühüm tarixi xidmətidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2023-cü il 30 dekabr tarixli Sərəncamındakı aşağıdakı sözlərdə də dahi rəhbərin müstəqil dövlətçilik uğrunda apardığı mübarizəsinin ən parlaq hadisələrindən biri olan üçrəngli bayrağın dövlət rəmzi kimi qəbul edilməsi böyük tarixi hadisə kimi qiymətləndirilir. *"Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır".*

Müstəqil Azərbaycan dövlətinin rəhbəri kimi də Heydər Əliyev ölkəmizin digər regionları kimi, Naxçıvanın da coğrafi şəraitini nəzərə almaqla muxtar respublikaya daim yüksək diqqət və qayğı göstərmiş, bu ərazidə sosial-iqtisadi, hərbi-siyasi, elmi-mədəni inkişafa xüsusi diqqət yetirmişdir. Naxçıvanda ordu quruculuğunun inkişaf etdirilməsi, sərhədlərin möhkəmləndirilməsi, yeni sənaye sahələrinin yaradılması, iş yerlərinin açılması həmin tarixi dövrün mühüm hadisələridir. Həmin dövrdə regionda ziyalı potensialını gücləndirmək məqsədilə Naxçıvan Dövlət Universitetinin maddi-texniki bazasının və kadr imkanlarının gücləndirilməsi, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması muxtar respublikanın hərtərəfli dinamik inkişafına xidmət edən xüsusi əhəmiyyətə malik olan tarixi addımlardır.

Bütövlükdə, müstəqil Azərbaycan dövlətinin, o cümlədən də Naxçıvan Muxtar Respublikasının inkişafında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yeni və geniş üfüqlər açmışdır. Məhz Prezident cənab İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikası bütün istiqamətlər üzrə hərtərəfli şəkildə inkişaf etmiş bir diyara çevrilmişdir. Hazırda Naxçıvanda sosial-iqtisadi sahədə aparılan genişmiqyaslı islahatlar, uğurla həyata keçirilməkdə olan böyük infrastruktur layihələri, hərbi quruculuq sahəsində atılan mühüm addımlar muxtar respublikanın müasir dövrdəki inkişafının yeni simasını müəyyən edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" imzaladığı 2023-cü il 5 iyun tarixli Sərəncam Azərbaycanın bu qədim diyarında da yeni tarixi dövrün başlanılmasına real təminat verir. Naxçıvanda Azad İqtisadi Zonanın yaradılması, Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan qovşağının salınması, muxtar respublikaya Türkiyə ərazisindən yeni təbii qaz xəttinin çəkilməsi, regionda yaşıl enerji sektorunun formalaşdırılması və genişləndirilməsi muxtar respublikanın yeni tarixi inkişaf mərhələsinin yaxın dövr ərzində gerçəkləşdiriləcək reallıqlarıdır.

Naxçıvan Dövlət Universitetinin bazasında Azərbaycanda ən müasir və geniş ali məktəb kompleksinin yaradılması və inkişaf etdirilməsi regiondakı yeniləşmə hərəkətinin yüksəkixtisaslı mütəxəssislərlə təmin olunmasına öz töhfələrini verməkdədir. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi də, öz növbəsində, muxtar respublikada elmi mühitin, ziyalı potensiallarının inkişafına uğurla xidmət etməkdədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın 25 sentyabr 2023-cü il tarixdə Naxçıvana birgə səfərləri zamanı "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu"nun imzalanması isə muxtar respublikanın orta dəhliz nəqliyyat magistralının əsas tranzit qovşaqlarından birinə çevrilməsini təmin edəcəkdir. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğrunda qətiyyətlə mübarizə apardığı Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanda daha böyük inkişaf üçün geniş üfüqlərin açılacağından xəbər verir. Bununla 19-20 sentyabr 2023-cü il tarixdə birgünlük hərbi əməliyyat nəticəsində Azərbaycanın tam ərazi bütövlüyünü təmin etmiş Prezident cənab İlham Əliyev "dəmir yumruğ"u ilə Azərbaycanın ayrılmaz bir hissəsi olan Naxçıvan Muxtar Respublikasının çoxillik blokada şəraitindən çıxarıb dəmir relslərlə ana Vətənə qovuşduracaqdır. Bu mənada, cənab İlham Əliyevin dəmir iradəsi ilə ən yaxın dövrdə Azərbaycanın Türkiyə və Avropaya qapısı olan Zəngəzur dəhlizinin açılması Naxçıvan Muxtar Respublikasının gələcək inkişafı üçün həlledici faktora malik əhəmiyyətli hadisə olacaqdır. İnkişafın indiki mərhələsində Naxçıvan Muxtar Respublikasının yeni rəhbərliyi Azərbaycan dövlətinin Naxçıvan regionunda nəzərdə tutduğu bütün proqramların və layihələrin vaxtında və yüksək səviyyədə həyata keçirilməsini təmin etməklə yeni inkişafa yüksək səviyyədə nail olur. Beləliklə, Azərbaycanın ayrılmaz parçası olan bu diyarda yeni Naxçıvanın qurulması prosesi uğurla davam etdirilir.

Bütün bunlar, təşəkkül və inkişaf prosesləri Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi hadisəsinin bir əsrlik keşməkeşli və şərəfli yolunun mühüm hesabatı olmaqla bərabər, həm də regionda böyük bir yeni tarixi dövrün başlanmasına start verilməsi deməkdir. Bütövlükdə, Azərbaycan xalqı, o cümlədən Naxçıvan Muxtar Respublikasının əhalisi 7 fevral 2024-cü il tarixdə keçirilmiş növbədənkənar seçkilərdə nümayiş etdirdiyi möhtəşəm Birlik və Mütəşəkkilliklə daha böyük gələcəyə doğru yeni marafonda da özünün qüdrətli lideri Prezident cənab İlham Əliyevlə birlikdə olacaqlarını nümayiş etdirmişdir.

Bir sözlə, "qışı qarlı, yazı barlı" Naxçıvan Muxtar Respublikası 100 illik yubileyini müstəqil Azərbaycan dövlətinin və muxtar diyarın yeni Baharı ilə qarşılayır.

***Neçə belə illərə, doğma Naxçıvan! Bayramımız mübarək olsun!***






> ***“Mən 3 il Naxçıvanda yaşamağımı və sizinlə, muxtar respublikanın əhalisi ilə birlikdə işləməyi həyatımın, deyə bilərəm ki, ən parlaq, ən şərəfli bir dövrü hesab edirəm”.***
>
> ***Heydər ƏLİYEV***
> ***Azərbaycan xalqının Ümummilli Lideri***

# Muxtariyyətin 100-cü ali təntənəsi

Qədim Naxçıvan torpağı tarixboyu bütün çətinliklərə sinə gərib, Azərbaycanın bu dilbər guşəsinin hər qarışı qəhrəman naxçıvanlılar tərəfindən fədakarlıqla qorunub. Muxtariyyətimizin qazanılmasında, toxunulmazlığımızın qorunmasında çox şücaətlər göstərilib. Ona görə də tariximizin bizə verdiyi bu qiymətli və əvəzsiz töhfəni – muxtariyyət hüququnu qoruyub saxlamalı, muxtar respublikamızı hər sahədə irəli aparmaq üçün əlimizdən gələni əsirgəməməliyik. Bu bizim doğma Naxçıvanımız qarşısında vicdan və vətəndaşlıq borcumuzdur.

Muxtar respublikamızın əsl yüksəlişi və bugünkü tərəqqiyə qovuşması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 90-cı illərində çox mürəkkəb tarixi-siyasi şəraitdə Moskvada nəzarət və təqiblərdən yaxa qurtararaq öz xalqının köməyinə gələn görkəmli dövlət xadimi Heydər Əliyev Bakıda da dönük rəhbərlərdən soyuq münasibət gördə doğulduğu torpağa üz tutdu. Naxçıvanlılar Ulu Öndəri böyük səmimiyyət və ehtiramla qarşıladılar. Üstünü qara buludlar almış muxtar respublika əhalisi görkəmli dövlət xadiminin zəka və qüdrətinə sığındı. Naxçıvanlılar Ulu Tanrının xalqımızın xilası və nicatı üçün qoruyub saxladığı, taleyin bu qədim yurd yerinə göndərdiyi böyük rəhbərin ətrafında sıx birləşdi, onu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçdilər. Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə Ümummilli Liderin reallaşdırdığı müdrik və qətiyyətli tədbirlər qısa müddətdə muxtar respublikanın etibarlı müdafiəsini təmin etdi, dövlət müstəqilliyi ilə bağlı qabaqlayıcı addımlar atıldı.

“Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2023-cü il tarixli Sərəncamında da deyildiyi kimi: *“Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur.*

*Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır”.*

O günlərdə üçrəngli bayrağımızın ilk dəfə Naxçıvan Ali Məclisində qaldırılması, muxtar respublikanın adından “sovet, sosialist” sözlərinin çıxarılması, qonşu Türkiyə və İranla zəruri əlaqələr yaradılması Ulu Öndərin təkcə Naxçıvan deyil, bütövlükdə, xalqımız qarşısında misilsiz tarixi xidmətləri idi. Sonralar Ümummilli Liderimiz bununla bağlı naxçıvanlılara xitabən deyəcəkdi: ***“Mən 3 il Naxçıvanda yaşamağımı və sizinlə, muxtar respublikanın əhalisi ilə birlikdə işləməyi həyatımın, deyə bilərəm ki, ən parlaq, ən şərəfli bir dövrü hesab edirəm”.***

1992-1993-cü illərdə AXC-Müsavat hakimiyyətinin xalqa zidd siyasətinin bais olduğu başıpozuqluq dövründə də Ulu Öndər Naxçıvanı qorumuş, onu işğaldan, məhv olmaqdan xilas etmişdir. Bu tarixi reallıqları dəyərləndirən Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: ***“O illərdə ancaq Ulu Öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu... Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu”.***

Ümummilli Liderin daimi diqqəti, himayəsi, yerli potensialın hərəkətə gətirilməsi ilə ölkədə ilk dəfə Naxçıvanda başladığı aqrar islahatlar uğurla həyata keçirildi. Mövcud sənaye müəssisələri özəlləşdirildi və yenidən quruldu. Yerli ehtiyatlara əsaslanan müasir istehsal sahələri yaradıldı. Naxçıvan şəhərində, rayon mərkəzlərində, yaşayış məntəqələrində əsaslı quruculuq işlərinə başlandı. Sosial-mədəni obyektlər, binalar təmir və bərpa edildi, yeni obyektlər tikildi. Təhsil, səhiyyə və digər sahələrin inkişafı prioritet vəzifəyə çevrildi. Əhalinin elektrik enerjisi, qaz, içməli su problemi aradan qaldırıldı. Kommunikasiyalar təzələndi, genişləndi. Rabitə-nəqliyyat şəbəkəsi müasirləşdirildi, tələbata uyğun quruldu. Muxtar respublikanın etibarlı müdafiəsi təmin olundu, hərbi quruculuq məsələləri diqqət mərkəzində saxlanıldı. Minnətdarlıqla vurğulamaq yerinə düşər ki, həyata keçirilmiş misilsiz işlərin hamısında əsas istiqamət məmləkətimizin hərtərəfli tərəqqisinə, insana qayğıya, əhalinin maddi-rifah halının, yaşayış səviyyəsinin və şəraitinin daha da yaxşılaşdırılmasına yönəlmişdi.

> ***“Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur.”***
>
> ***“Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında”Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il 30 dekabr tarixli Sərəncamından***

Naxçıvanlılar yaxşı bilirlər ki, Heydər Əliyev şəxsiyyəti olmasaydı, Naxçıvan yaşayaraq bugünkü günə gəlib çata, onun muxtariyyəti və ərazisi qorunub saxlanıla bilməzdi. Biz buna görə daim Ulu Öndərə borcluyuq. Əldə olunmuş uğurlar və nailiyyətlər dahi rəhbərin yoluna sədaqətin nəyə qadir olduğunun daha bir göstəricisinə çevrilmişdir.

Onun yolunu sədaqətlə davam etdirən Prezident cənab İlham Əliyev prezidentliyi müddətində 15 dəfə muxtar respublikamıza səfər etmişdir. Bu müddətdə dövlət başçısı qədim diyarımızın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair müxtəlif sərəncamlar, Dövlət proqramları imzalamışdır. 2023-cü il dekabr ayının 30-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalaması isə əsl bayram ərməğanı oldu. Sərəncamda deyilir: *“Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika yaşıl enerji zonası elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir”.*

Naxçıvanın uğurları ilbəil artmaqdadır. Həyatın bütün sahələrində müvəffəqiyyətlər qazanılır, diyarın hərtərəfli inkişafı təmin edilir. Muxtar respublikada həyata keçirilən quruculuq, abadlıq və yenidənqurma işləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gecəli-gündüzlü məqsədyönlü fəaliyyətinin məntiqi nəticəsidir. Onun bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü işlər və həlli vacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmiş, regionu çiçəklənən diyara çevirmişdir.

Naxçıvanın muxtar respublika statusu bu bölgənin 100 illik tarixi taleyində, onun ərazisinin qorunub saxlanılmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malik olmuşdur. Bu illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfəsini vermişdir. Ölkə Prezidentinin dediyi kimi: ***“Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir”.***

Ulu Öndər Heydər Əliyevin Naxçıvanın muxtariyyat statusunun qorunması, muxtar respublikanın yubileylərinin keçirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər dahi rəhbərin bu qədim yurd yerinə qayğısının ifadəsi idi və Naxçıvan Muxtar Respublikasının 80, 85, 90, 95 illik yubileylərinin ölkəmizdə geniş qeyd olunması bunun bariz nümunəsidir.

Artıq Naxçıvan muxtariyyətinin 100 yaşının müxtəlif tədbirlərlə qeyd olunmasına start verilib. Şübhəsiz ki, hamımız üçün əziz olan bu il də Naxçıvanda hərtərəfli inkişaf təmin olunacaq, abadlıq-quruculuq işlərinin həcmi, sosial-iqtisadi inkişaf dinamikası və əhalinin rifah halı daha da artacaq, 100 ilin Naxçıvanı tariximizə daha bir yüksəliş və tərəqqi dövrü kimi yazılacaqdır. Bütün bunlar onu göstərir ki, Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. Ulu Öndərin ***“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”*** sözləri indi xoş bir arzu çərçivəsindən çoxdan çıxmış və bu günümüzün möhtəşəm reallığına çevrilmişdir.

Bəli, Ulu Öndərimizin Azərbaycan haqqında, Naxçıvan haqqında arzuları, planları Onun layiqli davamçısı, dövlət başçısı tərəfindən uğurla reallaşdırılır. Ölkə başçısının Naxçıvanın çiçəklənməsi uğrunda mühüm qərarlarından biri də muxtar respublikada müasir idarəetmə sisteminin tətbiq olunmasıdır. Xalqın iftixarına çevrilən ölkə Prezidentinin gündəlik diqqət və qayğısı ilə əhatə olunan qədim Naxçıvan diyarında bu gün yeni bir həyat çağlayır, dövlət başçısının Naxçıvanın kiçik problemlərinə belə böyük həssaslıqla yanaşması hər birimizin ürəyini dağa döndərir.

*Tarixboyu başı çox bəlalar çəksə də, dəfələrlə yüksəliş dövrü yaşamış, zəngin mədəni irs yaratmış qədim Naxçıvan muxtariyyətinin 100-cü ali təntənəsini yaşayaraq bugünkü inkişafı ilə möhkəm köklər üstündə qol-qanad atıb daha xoş sabahına doğru inamla irəliləyir.*

✍ **Məhəbbət MİRZƏYEVA**



# Beş min ilin bir əsri...
## Muxtariyyət yaşın mübarək, doğma Naxçıvanım!

Ulu Öndərin 100 illiyinin müxtəlif silsilə tədbirlərlə, böyük təmtəraq, coşqu və görkəmli dövlət xadiminə sevgi və ehtiramla qeyd edildiyi ötən ilin son günlərinin birində şad bir xəbər eşitdik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2023-cü il 30 dekabr tarixli Sərəncamı naxçıvanlılara, hər bir naxçıvansevərə dövlət başçısının Dünya Azərbaycanlılarının Həmrəylik Gününə və Yeni il bayramına təbriki, qədim yurd yerinə, onun yurdsevər, torpaq, Vətən qədri bilən insanlarına növbəti qayğısının ifadəsidir. Sərəncamda oxuyuruq: *"Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir".*

Bir qədər yaxın keçmişə ekskurs edərək yaşadığımız dövrün son iyirmi ilinə nəzər salsaq, ölkə Prezidenti cənab İlham Əliyevin Naxçıvanla bağlı gördüyü işlərin həcminin və coğrafiyasının genişliyini görərik. Onun ölkəmizə rəhbərliyi dövründə 15 dəfə Naxçıvana səfər etməsi, hər səfərində bu qədim yurd yerində əsl bayram sevincinin yaşanması, yeni və möhtəşəm obyektlərin istifadəyə verilməsi isə günümüzün reallığı, Naxçıvanın tarixinə yeni səhifələrin yazılmasıdır.

O da vurğulanmalıdır ki, bir qədər əvvəl, daha dəqiq desək, ölkə Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi hər bir naxçıvanlıda necə ruh yüksəkliyi yaratmışdırsa, növbəti Sərəncam naxçıvanlılara göstərilən qayğının davamlı olduğunu göstərdi. Bu mühüm əhəmiyyətli dövlət sənədində yeni prioritetlər müəyyənləşdirilib. Dövlət Proqramının qəbulundan ötən qısa müddət ərzində muxtar respublikada aparılan islahatlar, həmin islahatların məntiqi nəticələri, həyata keçirilən quruculuq tədbirləri və görülən işlər barədə ətraflı danışmaq olar. Lakin bu məsələlərlə bağlı qəzetimizin səhifələrində gündəlik olaraq yazılar dərc edildiyi üçün oxucuların vaxtını almaq istəmirik, həm də görünən dağa nə bələdçi?

Bir faktı xüsusilə qeyd etməliyik ki, dahi rəhbər Heydər Əliyevin ***"bir millət, iki dövlət"*** adlandırdığı Azərbaycan və Türkiyə əlaqələrinin inkişafı Naxçıvanı da öz qoynuna alıb. Ötən ilin sentyabr ayında məhz Naxçıvanda hər iki ölkə rəhbərinin iştirakı

**Ulu Öndər Heydər ƏLİYEV:**

***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq."***

ilə İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasiminin keçirilməsi, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu"nun imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun potensialının genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılması, Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışında iştirak etmələri dünya siyasət aləminin müzakirə predmetinə çevrilib.

Növbəti Sərəncam bir ziyalı, bir naxçıvanlı kimi mənə bu qədim diyarda muxtariyyətin möhkəmləndirilməsi, muxtar respublikanın yubileylərinin keçirilməsi ilə bağlı görkəmli dövlət xadimi Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi tədbirləri xatırlatdı. Sərəncamda da deyilir: *"Naxçıvanın davamlı inkişafında Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur".* Və bunu da mütləq xatırlamağa ehtiyac duyuruq: Ölkə başçısı bu addımı ilə Ulu Öndərin siyasətinə sadiqliyini bir daha sübut etdi. Ulu Öndər Heydər Əliyev deyirdi: ***"İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".*** Naxçıvanın böyük dövlətçilik tarixi və bu tarixin, ümumilikdə, Azərbaycanın dövlətçilik tarixi olduğunu ən yüksək tribunalardan qürurla bəyan edən Ulu Öndərin bu qədim yurd yeri haqqındakı arzularını da ata vəsiyyətini yerinə yetirməkdən qürur duyan cənab İlham Əliyev yüksək səviyyədə həyata keçirir.




**Sara ƏZİMOVA**
*"Şərq qapısı" qəzetinin baş redaktoru*

Beşminillik şəhərsalma mədəniyyətinə malik olan Naxçıvan ölkə Prezidenti cənab İlham Əliyevin davamlı qayğısı sayəsində son illərdə keçdiyi sürətli inkişaf yolu ilə, doğrudan da, dövlətçiliyin beşiyi olduğunu sübut edib. Bu gün müstəqillik kimi böyük bir nemətin daha da əbədi olması prinsipi naxçıvanlıların həyat idealına çevrilib. Bir ucu sərhəd bölgəsi Sədərək, bir ucu bağlar diyarı Ordubad, dağlar qoynunda füsunkarlıq rəmzi olan Şahbuz, digər bölgələrimiz bu gün inkişaf və tərəqqinin yeni müstəvisindədir. Rayon mərkəzləri ilə yanaşı, ucqar dağ kəndləri, sərhəd və ən kiçik yaşayış məntəqələri qəsəbə timsalı olmaqla müasirləşən bütün yaşayış məntəqələri bugünkü Naxçıvanın sosial-iqtisadi inkişafın göstəriciləridir.

Ancaq görülən bu işlərin blokada şəraitində yaşayan bir məmləkətdə reallaşması heç də asan məsələ deyil. Və bütün bunların təməlində dövlət başçısı cənab İlham Əliyevin doğma Azərbaycanımızın ayrılmaz guşəsi olan Naxçıvana bağlılığı, sevgi və məhəbbəti, insan amilinə, yurd amilinə böyük diqqət dayanır.

Bu qədim diyara hər gəlişində ölkə Prezidenti burada həyata keçirdiyi siyasətin bəhrələrini görür. Görür ki, hər gün, hər saat dəyişən Naxçıvan başdan-ayağa, sözün həqiqi mənasında, hər sahədə yeni quruculuq dönündadır. Gündən-günə sayı artan məktəb, səhiyyə, mədəniyyət ocaqlarının yeni binaları, salınan yeni yaşayış massivləri, yeni emal və istehsal müəssisələrinin həyata vəsiqə alması, insanların məşğulluq probleminin həllinə nail olunması, informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqi, beynəlxalq konfransların, idman yarışlarının keçirildiyi ünvan kimi Naxçıvanın bugünkü mənzərəsi Ulu Öndər Heydər Əliyev siyasətinin uğurlarıdır.

***"Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün Ulu Öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax bu inkişafda təcəssüm etdirir",*** – deyən cənab İlham Əliyevin 2022-ci ilin dekabr ayında Naxçıvanda yeni idarəetmə institutu yaratması isə ölkə başçısının Şərqin qapısına daha bir qayğısının təzahürüdür.

Bəhs edilən Sərəncamda da vurğulanır ki, bu gün muxtar respublikada Dövlət proqramları və infrastruktur layihələri müvəffəqiyyətlə həllini tapır; bu qədim diyar ölkəmizin iqtisadi qüdrətinin artırılmasına və intellektual potensialının gücləndirilməsinə öz töhfəsini verir. Naxçıvanın beynəlxalq miqyaslı mötəbər tədbirlərin keçirildiyi məkana çevrilməsi hər bir naxçıvanlıya qürur hissi yaşadır. Sevindiricidir ki, ölkəmizin ətraf mühitinin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika "yaşıl enerji zonası" elan olunub.

Gəlinən nəticə isə odur ki, dövlətçiliyimizin intişar, taleyüklü məsələlərin öz həllini tapdığı Naxçıvanla bağlı ölkə başçısının bu Sərəncamı min illərdir ki, xalqımızın nəsildən-nəslə ötürə-ötürə ən böyük ata-baba əmanəti kimi yaşatdığı şərəfli tariximizə son illərdə vurulmuş zərbəni 44 gün 23 saat ərzində sağaldan, qürurumuzun Xankəndi zirvəsini, ərazi bütövlüyümüzün Qarabağ böyüklüyünü özümüzə qaytaran, Azərbaycançılıq ideologiyasının böyük dəyər daşıdığını, bu dəyərin hər bir azərbaycanlı üçün müqəddəs məktəb olduğunu dünyaya göstərən cənab İlham Əliyevin Ulu Öndərin vaxtilə dediyi: ***"Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan durur"*** qənaətinə böyük diqqətin növbəti ifadəsidir.

Muxtar respublikanın 100 yaşını qeyd etdiyimiz ərəfədə daha bir tarixi günü yaşadıq. Daha doğrusu, bu tarixi öz siyasi iradəmizlə, dövlətçiliyimizə və liderimizə olan sevgimizlə bir daha nümayiş etdirdik. Düşünürəm ki, müstəqil Azərbaycanın tarixində ən yaddaqalan səsvermə prosesi təşkil olundu. Qalib ölkənin qalib xalqı kimi "Zəfərlərə davam", – dedik. Karvan biz, yolumuz isə uzundur. Biz cənab Ali Baş Komandanın rəhbərliyi altında Zəngəzur dəhlizini açacaq, Naxçıvanımızı Azərbaycana birləşdirəcəyik. Bu yolda uğur olsun, MUXTAR RESPUBLİKAM!!! Güclü Liderlə yeni uğurlara doğru, yolun açıq olsun, AZƏRBAYCAN!

# Muxtariyyət
# 100 illik şanlı tarix



*Naxçıvan Muxtar Respublikası Prezident cənab İlham Əliyevin timsalında Heydər Əliyev siyasi kursuna sədaqətini, məhəbbətini və etimadını növbəti dəfə göstərdi*

Bu gün Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100-cü ili tamam olur. Prezident cənab İlham Əliyevin imzaladığı 2023-cü il 30 dekabr tarixli müvafiq Sərəncamla muxtar respublikanın 100 illik yubileyi geniş qeyd olunur. Qədim yurdumuzun bir əsrlik muxtariyyət yubileyini fevral ayının 7-də keçirilən prezident seçkilərində xalqımızın cənab İlham Əliyevə növbəti dəfə göstərdiyi yüksək etimadın yaratdığı yüksək əhval-ruhiyyə fonunda qarşılayırıq.

***20 ilin möhtəşəm uğurlarına söykənən ümumxalq qərarı***

3 gün əvvəl keçirilmiş səsvermənin nəticələri xalqımızın milli maraq və mənafelərini layiqincə təmin edən, Azərbaycanı davamlı və sürətli inkişaf yoluna çıxaran hazırkı siyasi kursun alternativsizliyini bir daha sübuta yetirdi. Prezident seçkisi xalqımızın müdrik və dəyişməz seçiminə əsaslandı. Ölkə vətəndaşları növbəti dəfə Ulu Öndər Heydər Əliyev siyasi kursuna, bu kursun layiqli davamçısı kimi ötən 20 ildə Azərbaycanın bütün uğurlarının memarı olan möhtərəm cənab İlham Əliyevə səs verdilər.

Ümumiyyətlə, ötən 20 ildən artıq dövrün reallıqları xalqımızın seçkilərdə cənab İlham Əliyevə etimadının nə qədər düzgün və müdrik qərar olduğunu təsdiq edir. Bu illər ərzində Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın yüksəlişi, güclənməsi, qlobal səviyyədə nüfuzunu artırması, dövlətçiliyinin ən qüdrətli mərhələsinə qədəm qoyması tariximizin isbata ehtiyacı olmayan həqiqətləridir. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf siyasətini, strateji xətti layiqincə davam etdirən, onu zamanın çağırışlarından irəli gələrək daha da zənginləşdirən və həm də özü böyük bir siyasət məktəbinin banisinə çevrilən Prezident cənab İlham Əliyev bu illərdə Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirib, dövlətimizin yüksəlişi yolunda meydana çıxan bütün əngəlləri və maneələri qətiyyətlə aradan qaldırıb. Ölkə başçısının həyata keçirdiyi siyasət Azərbaycanı sürətli inkişaf yoluna çıxarmaqla bərabər, onun beynəlxalq mövqelərini də əhəmiyyətli dərəcədə gücləndirib. Artıq uzun müddətdir ki, regionun lideri olan Azərbaycan qlobal məsələlərdə söz və nüfuz sahibidir.

Bu mənada, fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində cəmiyyətin seçimi Heydər Əliyev siyasətinin alternativsizliyinə və ötən 20 ilin yekunlarına əsaslanan ümumxalq qərarıdır. Bu dövrdə Prezident cənab İlham Əliyevin nəinki müasir müstəqillik, bütövlükdə, dövlətçilik tariximizdə yaratdığı ən böyük salnamə torpaqlarımızın işğaldan azad edilməsi oldu. Məlumdur ki, torpaqlarımızın azadlığı və erməni separatizminə son qoyulması yeni reallıqlar yaradıb. Növbədənkənar prezident seçkiləri də bu reallıqlar şəraitində keçirildi. Müstəqilliyimizin bərpasından sonra ilk dəfə olaraq seçkilər torpaqlarımızın tam azadlığı şəraitində baş tutdu. Ona görə bu seçki Zəfər seçkisi və ərazi bütövlüyümüzün və suverenliyimizin təsbiti kimi tarixə düşdü.

Vətən müharibəsində Zəfərdən və Qarabağda erməni separatçılığına son qoyulmasından sonra Azərbaycan öz tarixinin tamamilə yeni mərhələsinə çıxıb. Ölkəmizin əsas ağrılı problemi həll edildiyindən artıq yeni hədəflər meydana gəlib və Prezident cənab İlham Əliyevin bir müddət əvvəl elan etdiyi milli prioritetlərdə qarşıya qoyulmuş yeni vəzifələr öz əksini tapıb. Bu mənada, Azərbaycan yeni mərhələyə prezident seçkiləri ilə qədəm qoyur.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illik yubileyini həm Azərbaycanın ərazi bütövlüyünün təmin olunduğu, həm də respublikamızın öz inkişafının yeni mərhələsinə qədəm qoyduğu bir şəraitdə qarşılayırıq. Qürur hissi ilə deyə bilərik ki, Azərbaycanın ərazi bütövlüyü və ölkəmizdə erməni separatizminə son qoyulması Naxçıvanın 100 illiyinə cənab Prezidentimizin, Müzəffər Ali Baş Komandanımızın ən böyük hədiyyələridir.

***Dövlətçilik tariximizdə, milli-mədəni və ədəbi proseslərdə xüsusi yeri olan diyar***

Zəngin keçmişə, ənənələrə, mənəvi və mədəni dəyərlərə malik olan xalqımız keşməkeşli olduğu qədər də parlaq və şərəfli inkişaf tarixinə malikdir. Bu yolda hər bir yurd yerimiz kimi Naxçıvanın da özünün xüsusi yeri var. Bu diyar Azərbaycanın siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatında hər zaman əhəmiyyətli rol oynamışdır.

Naxçıvan Azərbaycanın dövlətçilik tarixidir. Əcdadlarımız min illər boyu burada ardıcıl həyat sürmüş, böyük dövlətçilik ənənələrinin əsasını qoymuşlar.

Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına da dəyərli töhfələr vermişdir. Naxçıvan ərazisi antik və orta əsrlər dövrlərinə aid türk-islam mədəniyyəti nümunələri və tarixi abidələrlə – qədim yaşayış yerləri, şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir. Bu günədək qorunub saxlanılan arxeoloji abidələr, qədim karvansaralar, məscid və mədbədlər, həmçinin mədəni irsimizin inciləri sırasına daxil olan Nuh Peyğəmbər, Qarabağlar türbəsi, Əshabi-kəhf ziyarətgahı, Əlincəçay Xanəgahı öz möhtəşəmliyi ilə seçilməklə hər biri özündə tariximizi, milli-mənəvi dəyərlərimizi yaşadır. Azərbaycan xalqının əsası Naxçıvanda Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbi bütün Şərqdə məşhur olmuşdur və Möminə xatın türbəsi kimi nümunələri müasir dövrümüzə qədər gəlib çatmışdır. Ümumiyyətlə, muxtar respublika ərazisində 1200-dən çox dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidə qeydə alınaraq pasportlaşdırılmışdır.

Naxçıvan böyük şəxsiyyətlərin, Azərbaycan ədəbi-fəlsəfi fikrində və elmində xüsusi yeri olan mütəfəkkirlərin, filosofların, ustad qələm sahiblərinin vətənidir. Bu qədim diyar xalqımıza Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Cəlil Məmmədquluzadə, Məmməd Araz, Yusif Məmmədəliyev kimi şəxsiyyətləri bəxş edib.

Xüsusilə qeyd etməliyik ki, Naxçıvan Azərbaycanın müasir inkişaf və dövlətçilik epoxasının müəllifi, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vətənidir. Ulu Öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrü müasir dövlətçilik tariximizin parlaq səhifəsidir.

Prezident cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamında da buna diqqət çəkilərək deyilir: *"Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir".*

1920-ci ildə Azərbaycanın müstəqilliyinin itirilməsindən və sovet hakimiyyətinin Zəngəzuru Ermənistana verməsindən sonra Naxçıvan üçün də böyük təhlükə yaranmışdı. Zəngəzurla kifayətlənməyən ermənilər Naxçıvanın da Ermənistana birləşdirilməsi üçün cəhdlər etmişdilər. Lakin Ermənistan niyyətinə çatmamışdır. Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu almasında Türkiyənin də böyük rolu olmuşdur. 1921-ci il martın 16-da bağlanmış Moskva və 1921-ci il oktyabrın 13-də bağlanmış Qars müqavilələri Naxçıvanın taleyinin həll edilməsində böyük əhəmiyyətə malik olmuşdur. Naxçıvanın statusunun ilk beynəlxalq müqavilədə əks olunması həm o dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir.

1922-ci ilin dekabrında I Zaqafqaziya Sovetlər Qurultayı Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarında Naxçıvanın muxtariyyət statusunda Azərbaycan SSR-in ayrılmaz və tərkib hissəsi olduğunu təsdiq etdi. 1923-cü il dekabrın 5-də Azərbaycan Mərkəzi İnqilab Komitəsi Naxçıvan muxtar diyarının Azərbaycanın tərkibində muxtar respublikaya çevrilməsi haqqında Qərar qəbul edərək onun təsdiq olunmasını Zaqafqaziya Mərkəzi İnqilab Komitəsindən xahiş etdi. Zaqafqaziya Mərkəzi İnqilab Komitəsi 1924-cü il yanvarın 8-də bu Qərarı təsdiq etdi.

1924-cü il fevralın 9-da Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Respublikasının yaranması ilə Ermənistanın bu qədim Azərbaycan torpağı haqqındakı iddialarının qarşısına dəmir sədd çəkildi.

***Heydər Əliyevin milli mücadiləsinin Naxçıvan mərhələsi***

Naxçıvan Muxtar Respublikası yarandıqda onun sahəsi Naxçıvanın tarixi ərazisinin yalnız 5.988 kvadratkilometrini əhatə edirdi. 1929-1930-cu illərdə və bundan sonra sovet dövləti 1921-ci il Moskva və Qars müqavilələrinin qərarlarına zidd olaraq Naxçıvana qarşı ermənilərin yeni ərazi iddialarını həyata keçirdi və nəticədə, muxtar respublikanın ərazisi daha da azaldıldı.

Bununla belə qeyd edilməlidir ki, sovet dönəmində Naxçıvanda əhalinin savadsızlığının aradan qaldırılmasında, məşğulluğun yüksəldilməsində, iqtisadi potensialdan istifadədə nəzərəçarpan irəliləyişlər baş vermişdi. Lakin Naxçıvanın ən sürətli inkişaf dövrü Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrünə təsadüf edir. Azərbaycanın o illərdə keçmiş ittifaq miqyasında sonuncu yerlərdən qabaqcıllar sırasına yüksəlməsində Naxçıvanda əldə edilən iqtisadi və aqrar uğurlar mühüm rol oynamışdı. Bütövlükdə, 1970-1980-ci illərin əvvəllərində Naxçıvanın sosial-iqtisadi, siyasi və mədəni həyatında böyük dirçəliş baş vermişdi. Həmin dövrdə SSRİ və Azərbaycan SSR konstitusiyalarına uyğun olaraq Naxçıvan MSSR-in də yeni Konstitusiyası qəbul edilmişdi. Xüsusilə qeyd etməliyik ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə ermənilərin Azərbaycandan, o cümlədən Naxçıvan Muxtar Respublikasından yeni ərazilər qoparmaq planları baş tutmamışdı.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanın Naxçıvan Muxtar Respublikası qarşısındakı tarixi xidmətlərinin növbəti əsas dövrü 1990-cı ildən sonra başlayır. Bu həmin dövr idi ki, Azərbaycanda milli azadlıq mücadiləsi başlamışdı, amma bu proses məhz Heydər Əliyevin 1990-cı ilin yayında Naxçıvana gəlişindən sonra daha mütəşəkkil forma almışdı. Öncə onu qeyd edək ki, o vaxt

Ardı 10-cu səhifədə



sovet dövlətinə başçılıq edən Mixail Qorbaçovun yürütdüyü siyasətə etiraz edərək bütün vəzifələrindən istefa verən Heydər Əliyev ömrünün axırına kimi öz fəaliyyəti ilə yeni yaranmaqda olan müstəqillik hərəkatının daha geniş vüsət almasına xidmət etmişdir. Bu baxımdan görkəmli dövlət xadimi hələ 1990-cı ildə, 20 Yanvar hadisələrindən dərhal sonra oğlu cənab İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək böyük cəsarətlə xalqımızın haqq səsini ucaltması milli müstəqilliyə gedən yolumuzun ən önəmli hadisələrindən biri idi.

Ulu Öndərin həmin ilin yayında Naxçıvana gəlişi isə milli müstəqilliyimizə gedən yolun yeni başlanğıcı oldu. Həmin dövrün reallığı həm də ondan ibarətdir ki, naxçıvanlılar doğma Heydər Əliyevi böyük sevgi ilə qarşılamışdılar. Təsadüfi deyil ki, həmin dövrdə Azərbaycan Ali Sovetinə və Naxçıvan Ali Məclisinə keçirilən seçkilərdə Heydər Əliyevin namizədliyi iki seçki dairəsindən irəli sürülmüşdü.

İctimaiyyət nümayəndələrinin təkidli xahişi ilə 1990-cı ildə deputat seçilən dahi şəxsiyyətin təşəbbüsləri ilə hələ 1990-cı ilin noyabr ayında Naxçıvan Ali Məclisinin qəbul etdiyi qərarlar xalqımızın müstəqillik yolunun ən cəsarətli siyasi-hüquqi addımları idi. Belə ki, Ali Məclisin qəbul etdiyi qərarlarla 70 ildən sonra Azərbaycanın üçrəngli bayrağının yenidən rəsmi bayraq kimi təsbit olunması, Naxçıvan Muxtar Respublikasının adından "sovet" və "sosialist" sözlərinin çıxarılması və bütün bunların davamı kimi bir neçə ay sonra sovet dövlətinin keçirdiyi SSRİ-nin saxlanılması ilə bağlı referendumun Naxçıvanda boykot edilməsi sovet hakimiyyətinə böyük cəsarətlə meydan oxumaq idi. O cümlədən hələ sovet dövründə Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq Naxçıvan Ali Məclisi tərəfindən 1990-cı ilin 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi, qəbul edilən qərarda SSRİ-nin və Azərbaycanın siyasi rəhbərliklərinin 20 Yanvar faciəsinə görə birbaşa məsuliyyət daşıdıqlarının göstərilməsi dahi rəhbərə məxsus cəsarətin möhtəşəm göstəricisi idi.

***Ulu Öndər Naxçıvanın böyük xilaskarıdır***

Heydər Əliyevin Naxçıvandakı siyasi fəaliyyətinin növbəti mühüm mərhələsi Ümummilli Liderin xalqın təkidli istəyi ilə 1991-ci il sentyabrın 3-də muxtar respublika Ali Məclisinin Sədri seçilməsindən sonrakı dövrü əhatə edir. Bu həmin dövr idi ki, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı genişlənir, respublikamızın bütün sərhədyanı yaşayış məntəqələrinə ermənilər tərəfindən edilən hücumlar güclənirdi. Tədricən blokadaya düşməsi səbəbindən Naxçıvanda vəziyyət daha ağır idi.

Ulu Öndərin ilk gündən atdığı qətiyyətli addımlar, həyata keçirdiyi kompleks tədbirlər Naxçıvanla bağlı Ermənistanın bütün işğalçılıq planlarını alt-üst etdi. Naxçıvanlılar böyük Heydər Əliyevin liderliyi ilə silaha sarılaraq doğma diyarın müdafiəsinə qalxdılar. Mərkəzi hakimiyyətin ögey münasibətinə, hərbi dəstəyin olmamasına baxmayaraq, Heydər Əliyev böyük sərkərdə kimi Naxçıvanı qorudu, xilas etdi, düşmən tərəfindən işğal edilməsinə imkan vermədi.

Naxçıvanla bağlı daha bir diqqətçəkən məqam ondan ibarətdir ki, keçmiş sovet qoşunları muxtar respublikanı tərk edərkən bütün silah və texnikalarını yeni yaranan Azərbaycan Ordusunun hissələrinə təhvil verdilər. Əlbəttə ki, bu prosesdə Naxçıvan Ali Məclisinin Sədri Heydər Əliyevin müdrikliyi böyük rol oynamışdır. 1992-ci ilin iyulunda Naxçıvandakı 75-ci diviziyanın əmlakının, silah-sursatının Azərbaycan Milli Ordusuna təhvil verilməsinə başlanılmış və proses avqustun ortalarında başa çatdırılmışdı. Bundan sonra Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin və təhvil alınan 75-ci diviziyanın hərbi hissələrinin bazasında Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvandakı 5-ci Əlahiddə Motoatıcı Briqadası yaradılmışdır. Silah-sursatın tam təhvil verilməsindən cəmi 3 gün sonra – 1992-ci il avqustun 18-də keçmiş sovet ordusunun 75-ci diviziyasının son dəstəsi Naxçıvanı tərk etmişdir.

Eyni zamanda Naxçıvanda dövlət sərhədlərini qoruyan keçmiş 41-ci sərhəd dəstəsinin də bütün hərbi, hərbi-texniki və təsərrüfat əmlakı Azərbaycan Sərhəd Qoşunlarının Naxçıvandakı dəstəsinə təhvil verildi. Artıq 1992-ci il sentyabrından Naxçıvan ərazisində digər dövlətin – Rusiyanın heç bir hərbi hissəsi və hərbi qulluqçusu qalmamışdı. Qonşu dövlətlərlə sərhədin mühafizəsi Azərbaycan Sərhəd Qoşunları tərəfindən həyata keçirilməsinə başlanılmışdı.

1992-ci ilin avqust-sentyabr aylarında sözügedən hərbi hissələrin şəxsi heyətinin Azərbaycanı tərk etməsindən sonra Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanın müdafiəsi daha da möhkəmləndi. Blokada vəziyyətində olmasına baxmayaraq, bu diyar Ermənistanın təcavüzkarlığının qarşısında qətiyyətlə, mərdi-mərdanə mübarizə aparırdı.

Onu da qeyd edək ki, müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan siyasi qruplar – nə Ayaz Mütəllibov iqtidarı, nə də onun yerinə gəlmiş AXC-Müsavat cütlüyü blokada vəziyyətində olan muxtar respublikanın mövcud ağır vəziyyətini qismən də olsa, yaxşılaşdırmaq üçün əməli tədbir görə bilmiş və ya görmək istəmişdilər. Belə bir şəraitdə Heydər Əliyev muxtar respublikanın sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün məhdud daxili imkanlarından maksimum və səmərəli istifadə edir, o cümlədən qonşu Türkiyə və İranla iqtisadi əlaqələrin inkişafı üçün zəruri tədbirlər həyata keçirirdi. Heydər Əliyevin muxtar respublikaya rəhbərlik etdiyi həmin dövrdə inşasına başlanılan və 1992-ci il mayın 28-də istifadəyə verilən Azərbaycanla qardaş Türkiyə arasındakı "Ümid" körpüsü həmin dövrdə Naxçıvanın nəqliyyat blokadasının qismən aradan qaldırılmasında böyük rol oynadı. Bütövlükdə, dahi rəhbərin uzaqgörənliyi nəticəsində görülən tədbirlər enerji çatışmazlığından, nəqliyyat blokadasından, sosial-iqtisadi böhrandan əziyyət çəkən muxtar respublikanı bütün fəlakətlərdən xilas etdi  və ayaqüstə qalmasında böyük rol oynadı.

Bütün bunları o dövrdə Azərbaycana rəhbərlik edən qaragüruhçu qruplar da bilir və Ulu Öndəri özlərinə rəqib gördükləri üçün onu Naxçıvana rəhbərlikdən uzaqlaşdırmaq istəyirdilər. Lakin qaragüruhçuların bu istiqamətdə bütün cəhdləri Naxçıvan ictimaiyyətinin dahi şəxsiyyətin ətrafında güclü səfərbər olması səbəbindən baş tutmadı. Eyni zamanda Azərbaycanın gələcəyini düşünən, dövlətçiliyimizin və müstəqilliyimizin itirilməsi təhlükəsindən dərin narahatlıq keçirən ziyalılar, aydınlar ölkəmizin nicatını yalnız Heydər Əliyevin siyasi hakimiyyətə gəlişində görürdülər və bu məqsədlə Ulu Öndərin ünvanına respublikamızın hər yerindən müraciətlər edilir, teleqramlar göndərilirdi. Bu baxımdan tariximizin üz qarası olan AXC-Müsavat cütlüyünün yaratdığı maneələrə rəğmən 1992-ci ilin noyabr ayında Naxçıvanda Onun rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının təsis edilməsi respublikamızın yeni siyasi tarixinin böyük hadisəsi idi. Ümumxalq sevgisinin və etimadının təcəssümü kimi xalqımızın böyük oğlunun 1993-cü ilin iyun ayında Naxçıvandan Bakıya gəlişi və hakimiyyət sükanının arxasına keçməsi Azərbaycanda tamamilə yeni ictimai-siyasi proseslərin inkişafına səbəb oldu. O proseslər ki Azərbaycanın dövlətçiliyinin və müstəqilliyinin əbədiliyini və dönməzliyini təmin etdi.

***Naxçıvan hər zaman Prezident cənab İlham Əliyevin yüksək diqqət və qayğısını hiss edib***

Ulu Öndərin xalqımızın istək və arzuları ilə siyasi hakimiyyətə gəlişi Naxçıvanda da mühüm dəyişikliklərə səbəb oldu. Belə ki, düşmən qarşısında yalnız qalmış Naxçıvanın, ilk növbədə, müdafiəsi daha da gücləndirildi. Ulu Öndərin başlatdığı yeni islahatlar muxtar respublika iqtisadiyyatının inkişaf etdirilməsinə böyük töhfələr verdi. Naxçıvan sakinlərinin uzun müddətdən bəzi əziyyət çəkdikləri sosial problemlər tədricən aradan qaldırıldı.

Ötən 20 ildə isə Naxçıvan hər zaman Prezident cənab İlham Əliyevin böyük diqqət və qayğısını hiss edib. Bu dövrdə Azərbaycan Prezidentinin imzaladığı Dövlət proqramlarının, ayrı-ayrı vaxtlarda ayırdığı maliyyə vəsaitlərinin nəticəsi kimi Naxçıvan böyük inkişaf yolu keçib, respublika üzrə istehsal edilən ÜDM-də muxtar respublikanın payı əhəmiyyətli dərəcədə yüksəlib. Habelə ötən 20 ildə Prezident cənab İlham Əliyevin birbaşa diqqəti sayəsində muxtar respublikanın enerji problemi tamamilə aradan qaldırılıb.

Bu dövrdə Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı ilə Əlahiddə Ümumqoşun Ordunun döyüş imkanları ən modern səviyyəyə yüksəldilib. Muxtar respublikada hərbi təhsilə əlçatanlığın təmin edilməsi üçün Heydər Əliyev adına Hərbi Lisey yaradılıb. Bu diqqət və qayğının təcəssümü olaraq torpaqlarımızın azadlığı uğrunda 44 günlük Vətən müharibəsində Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti böyük qəhrəmanlıq nümunələri yaratdı, Şuşaya qədər döyüş yolu keçdi, bəziləri şəhidlik mərtəbəsinə ucaldılar. ***"İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır"***, – deyə Prezident cənab İlham Əliyev bildirib.

Dövlət başçısının böyük diqqət və qayğısı sayəsində Naxçıvan həm də türk dünyasının önəmli ünvanlarından biri kimi diqqəti çəkir. Bu sırada türk dövlətlərinin təşkilatlanmasının əsas tarixi mərhələlərindən birinin məhz Naxçıvandan başlaması xüsusi qeyd olunmalıdır. Belə ki, 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə Toplantısı zamanı "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Naxçıvan Sazişi imzalanıb. Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası ilə yaranmış yeni reallıq isə Orta dəhlizin inkişaf perspektivlərini gündəmə gətirməklə Zəngəzur dəhlizinin açılmasını zəruri etmiş və Naxçıvan Muxtar Respublikasının tranzit potensialını genişləndirmişdir. Möhtərəm Prezidentimizin qətiyyətli siyasətinin nəticəsi kimi Zəngəzur dəhlizinin açılması həm Naxçıvanın tarixində yeni mərhələ olacaq, həm də bu Azərbaycan diyarının bütün Türk dünyasındakı yerini daha da möhkəmləndirəcək. İki il öncə Prezident cənab İlham Əliyevin imzaladığı müvafiq Sərəncamla Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin yaradılması ilə muxtar respublikanın idarəçiliyində baş  verən dəyişikliklər isə dövlət başçısının qarşıya qoyduğu tapşırıqların və tövsiyələrin bu qədim diyarda layiqincə və daha keyfiyyətlə yerinə yetirilməsinə yol açmaqdadır. Muxtar respublikada əldə olunmuş ötən ayların statistik məlumatları bunu deməyə əsas verir.

Ulu Öndər Heydər Əliyev siyasətinin və Prezident cənab İlham Əliyevin uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Bu prosesdə respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın misilsiz fəaliyyəti dövlətə və xalqa xidmət məramının mükəmməl nümunəsidir. Qətiyyətlə deyə bilərik ki, Mehriban xanım Əliyevanın böyük Heydər Əliyev ideyalarına söykənən hər bir təşəbbüsü, çoxşaxəli fəaliyyətinin hər bir istiqaməti məhz ölkəmizin yüksəlişinə, beynəlxalq nüfuzunun artmasına, vətəndaşlarımızın rahat, firavan yaşamasına, Azərbaycan həqiqətlərinin olduğu kimi dünyaya çatdırılmasına xidmət edir.

Hörmətli Mehriban xanım Əliyevanın yüksək vətənpərvərliyə, böyük mərhəmətə, nəcib humanizmə söykənən böyük missiyasının real təzahürünü Naxçıvan Muxtar Respublikasının timsalında da görməmək mümkün deyil və 100 yaşlı muxtar respublikanın sakinləri də bunu aydın görür, həmişə qədirbilənliklə qiymətləndirirlər. Bir neçə il əvvəl Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Məhdud Fiziki İmkanlı İnsanlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin xidmətlərindən muxtar respublikada yaşayan məhdud fiziki imkanlı insanlar bu gün də istifadə edə bilirlər.

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti böyük Heydər Əliyev ideyalarının həyata vəsiqə almasına, Prezident cənab İlham Əliyevin isə ləyaqətlə davam və inkişaf etdirdiyi dahi liderimizin siyasi kursunda və inkişaf strategiyasında qarşıya qoyulan vəzifələrin uğurla və keyfiyyətlə yerinə yetirilməsinə xidmət edir. Cəmi bir neçə gündən sonra Mehriban xanım Əliyevanın respublikamızın Birinci vitse-prezidenti təyin olunmasının 7-ci ili tamam olur. Hələ 2017-ci ildə Prezident cənab İlham Əliyev tərəfindən verilən bu qərar bütün xalqımızın, o cümlədən muxtar respublika sakinlərinin böyük rəğbəti ilə qarşılandı. Çünki Mehriban xanım Əliyeva ölkəmizdə illərdir, ictimaiyyətin birmənalı dəstəyini qazanmış ictimai-siyasi xadimdir. Ötən 7 ilin real mənzərəsi bir daha göstərir ki, Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi dövlətə xidmətin mükəmməl nümunələrini yaratmaqdadır.

Mehriban xanım Əliyevanın müxtəlif vaxtlarda Prezident cənab İlham Əliyevlə birlikdə Naxçıvana səfərləri, Əshabi-kəhf ziyarətgahını ziyarət etməsi, 2008-ci ildə Türkiyənin o zaman Baş naziri vəzifəsində çalışan Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri çərçivəsində onun xanımı Əminə Ərdoğanla birlikdə Naxçıvan Dövlət Universitetində olması, 2009-cu ildə Prezident cənab İlham Əliyevlə birlikdə Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyində iştirakı Naxçıvan ictimaiyyəti tərəfindən hər zaman minnətdarlıqla xatırlanır. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun, xüsusilə Vətən müharibəsində şəhid olmuş Naxçıvandan olan övladlarımızın ailə üzvlərinə, qazilərə yaxından diqqət və qayğısı isə qədirbilən naxçıvanlıların yaddaşından heç vaxt silinməyəcək.

***Torpaqlarımızın azad edilməsindən və Qarabağda erməni separatçılığına son qoyulmasından sonra Azərbaycan öz inkişafının yeni mərhələsinə start verib.***

Fevral ayının 7-də keçirilən prezident seçkiləri isə bu mərhələnin, başqa cür desək, müstəqil Azərbaycanın öz yeni hədəflərinə doğru inkişafının başlanğıcıdır. Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinin məhz bu günlərə təsadüf etməsi isə yubiley əhvali-ruhiyyəsini daha da yüksəldir. İnanırıq ki, yeni mərhələdə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha uca zirvələr fəth edəcək, Naxçıvan isə daha möhtəşəm inkişaf nümunələri yaradacaq.

**Bəxtiyar ƏSGƏROV**
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri***



# Vüqarından güc aldığım, xilasının 100 yaşı mübarək!

Cahana nurunla nəqş çəkən gündən səni bütün dünya sevir. O sevgi gah şəninə şən qatan nəğməyə, bəzən də sənə əli çatmayan aşiqlərinin qəzəbinə çevrildi. Mübarizə apardın, ucaldın! Qismətinə Möminə xatınlara yurd olmaq düşdü. Şanslıydın, amma cəfasız nə səfa. Əmir Teymura meydan oxuyan, 14 il mübarizlik nümunəsi göstərdiyin oğuz əmanəti Əlincədən qopan harayına səs verən olmadı.

Dövran dəyişdikcə böyüdün, genişləndin, tarixin sərvətinə çevrildin. Arazdan ilham aldın! Amma elə köksünə Arazla dağ çəkdilər! Təbrizdən ayrı düşdün, Bakıya həsrət qaldın! O taydan bu taya boylanan canının parçalarının ah-naləsi qocaltdı səni! Xəzri əsəndə qulağını səmaya, gözünü Zəngəzura çevirdin, bəlkə, Bakıdan xəbər alarsan deyə! Amma əsən küləklər tufana çevrildi! Köksündə uyuyan, xilasını səndə tapan Nuhun gəmisi belə kömək edə bilmədi! Köksünə dağ çəkdilər! İrəvan dağı! Dara düşəndə əlindən tutan, Bakıya səni qovuşduran Zəngəzur da harayına səs vermədi! Ayırdılar!.. Sən əhdinə sadiq qalaraq Zəngəzurun əmanətlərinə sahib çıxdın – öz balaların kimi! Onlar da səni qorudu, yaşatdı, lap elə anaları kimi!

Qapılarını taybatay açdığın, qonaqpərvərlik göstərdiyin mənfur "qonaqların" köksünə dağ çəkdi. Haradan biləydin ki, açıq ürəklə bağrına basdıqların bir gün qəlbinə Kərki yarası vuracaq!..

Amma sən təslim olmadın. Tarixin ən çətin anlarından üzüağ, alnıaçıq çıxdın. Nuhun da, Haçadağın da, Əlincənin də köksünə sığınmaqda haqları vardı. Mübarizliyindən övladların da ilhamlanırdı. Səni və anam Azərbaycanı dünyaya oğul və qızların tanıdırdı.

Sən Heydərlər böyütdün. Dünyaya uğuru ilə gələn, sənin xilasından bircə il əvvəl dünyaya göz açmış, qardaşının cümhuriyyəti ilə yaşıd oğlun səni yaşadacaq, səndən güc alacaqdı. Sən Türkün qapısı oldun! Ümid körpüsü ilə həsrəti sona çatdırdın, itmiş ümidlərə can verdin!

Qoca Şərqin qapısı, Cahanın nəqşi! O nəqşi qorumaq, Günəşin nuruyla daim bərq vura bilmək üçün başın necə bəlalar çəkdi?! Şahidin də, şəhidin də elə özün oldun! Bəli, "Dərdi çəkən bilər", – deyib atalarımız. Köksündə uyuyan övladların elə sən deyilmi? Sənə uzanan əlləri kəssən də, Qarabağ kimi dərdin varkən necə rahat ola bilərdin ki? Anamız Azərbaycan sevincini göz yaşına dəyişmişkən, Xocalının dərdi ilə beli bükülmüş, saçı ağarmışkən sakit dura bilərdinmi? Amma qollarını bir yandan Araz, bir yandan Zəngəzur bağlamışdı. Səmadan əsir qalan canından, qanından olan parçalarına həsrətlə baxırdın.

Amma o gün gəldi! Qeyrətli oğul və qızların zülmə yox dedilər. İlhamını səndən alan övladların yarana məlhəm oldular. Bilirdilər ki, sən varsan və daim var olacaqsan! Axı onlara sən öyrətmişdin anamız Azərbaycanın hər qarışının bizə Vətən olduğunu! Qarabağın da Naxçıvan qədər əziz olduğunu!

Əziz anam, əmanətlərini – vüqarını, qürurunu səndən alan övladlarını bas bağrına! Onlar sənin vəsiyyətinə əməl etdilər! Ali Baş Komandanımızın bir əmri ilə səndən güc alaraq "Təki Vətən sağ olsun", – dedilər. Məndən, ondan ötən zərbə sənə dəyməsin, – deyə sinələrini sipər etdilər! Onlar mərdliyi, cəsurluğu, dözümü, sevgini səndən öyrəniblər!

*Anam Azərbaycana qovuşmağın, həsrətə son qoymağımız yaxındır, darıxma! Elə buna görə də bu gün xilasının yüz yaşını vüqarla, qürurla, sevinclə qeyd edirsən! Bu gün həm də ona görə sevinclisən ki, səni də qoruyan "dəmir yumruq" yerindədir! Xankəndidən ucalan zəfər sədası Zəngəzuru da səsləyir! Gözəl gələcəyimiz xoşbəxt günlər qarşıdadır! Əmin əllərdəsən, Vətən! Qürurlan! Fərəhlən! Mübarəksən, 100 yaşlı muxtariyyət vüqarım, bir ömürlük səcdəgahım, əzəmətim, Naxçıvanım!*

**Aidə CƏLİLZADƏ**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

## Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illik yubileyi barədə ABŞ-da məqalə yayımlanıb

Obyektiv çıxışları və maraqlı təhlilləri ilə ölkəmizdə yaxşı tanınan, "Şərq qapısı" qəzeti ilə də sıx əməkdaşlığı olan amerikalı araşdırmaçı jurnalist Peter Teys Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illik yubileyi barədə ABŞ-ın nüfuzlu *https://www.eurasiareview.com* saytında məqalə yayımlayıb. Jurnalistin ölkəmizə, eləcə də Naxçıvana səfərlərindən aldığı təəssüratlar, həmçinin 44 günlük Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranmış yeni geostrateji reallıq barədə düşüncələri "100 il əvvəl Azərbaycan Respublikasının tərkibində yaradılmış Naxçıvan Muxtar Respublikası: zəngin tarix və müasir reallıq" başlıqlı yazıda təhlil olunub.




Maraqlı yazını *https://www.eurasiareview.com/04022024-100-years-ago-nakhchivan-autonomous-republic-established-within-republic-of-azerbaijan-rich-history-and-modern-reality-oped* səhifəsindən oxumaq olar.

**Əli CABBAROV**

## AMEA Qafqazşünaslıq İnstitutunda Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş dəyirmi masa keçirilib

Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2023-cü il 30 dekabr tarixli Sərəncamına və AMEA Rəyasət Heyətinin 2024-cü il 9 yanvar tarixli 1/2 saylı Qərarına əsasən fevralın 8-də AMEA Qafqazşünaslıq İnstitutunda dəyirmi masa keçirilib.



Dəyirmi masanı institutun direktoru, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı açıb. İnstitutun Ermənişünaslıq şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Elnur Kəlbizadə "Ermənistan və xarici ölkələrdəki araşdırma mərkəzlərinin tədqiqatlarında Naxçıvana əsassız iddialar (1991-2024-cü illər)" mövzusunda məruzə edib. Məruzəçiyə suallar verilib və müzakirələr aparılıb.

# 100 ilin Naxçıvanı

100 yaşlı Naxçıvan muxtariyyətinin yaranması Azərbaycanın dövlətçilik tarixində xüsusi əhəmiyyətə malik hadisədir. Bu qərar o vaxta qədər ermənilərin Naxçıvana əsassız iddialarına hüquqi cəhətdən son qoydu.

Hələ orta əsrlərdə Azərbaycan Atabəylər dövlətinin paytaxtı olan Naxçıvan şəhəri siyasi, iqtisadi, mədəni və strateji mövqeyi ilə həmişə seçilmişdir. Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin, o cümlədən Paleolit, Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin əsas mərkəzlərindən biri kimi Naxçıvan şəhəri Azərbaycanın ilkin şəhər məskənlərindəndir. Bütün bunlar haqqında söz demək, yazı yazmaq cild-cild kitablara sığmaz.

Mən bu yazıda son 100 ilin Naxçıvanına qısaca nəzər salmaq istəyirəm.

1920-ci il iyulun 28-də Naxçıvanda sovet hakimiyyətinin qurulması ilə Naxçıvan SSR elan edildi. Elə o vaxt Rusiya tərəfindən Naxçıvanla bağlı ərazi mübahisələri qızışdırılır və bunları ermənilərin xeyrinə həll etmək siyasəti aparılırdı. 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılması ilə doğma Vətənimizin əzəli və əbədi torpağı olan qədim Naxçıvanın muxtar respublika kimi Azərbaycanın tərkibində qalması təmin edildi.

Bununla da muxtar respublikada həyatın bütün sahələri böyük inkişaf yoluna qədəm qoydu. "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin Naxçıvan şöbəsinin yaradılması diyarın zəngin təbii sərvətlərinin aşkara çıxarılmasında, tarix, elm və mədəni irsin öyrənilməsində əhəmiyyətli rol oynadı.

Azərbaycan Elmlər Akademiyasının 1972-ci ildə təşkil olunmuş Naxçıvan Elm Mərkəzində müxtəlif elm sahələri üzrə tədqiqatlar aparılmağa başladı. İqtisadiyyatın inkişaf etdirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirildi; bu da insanların gün-güzəranının yaxşılaşmasına imkan verdi. Bütün bunlar ötən əsrin 80-ci illərinin ortalarınadək davam etdi. Həmin dövrdə SSRİ rəhbərliyinin ermənipərəst mövqeyi ilə Dağlıq Qarabağın və Naxçıvanın Ermənistana birləşdirilməsi məsələsi gündəmə gətirildi. Xalqın tələbi ilə 19 yanvar 1990-cı ildə Naxçıvan MSSR Ali Soveti tərəfindən muxtar respublikanın SSRİ tərkibindən çıxması haqqında Qərar qəbul olundu.

O günlərdə muxtar respublikada ictimai-siyasi vəziyyət gərginləşməkdə davam edirdi. İyulun



22-də xalqımızın böyük oğlu Heydər Əliyev Naxçıvana gəldi. Buradan deputat seçildi. O çətin günlərdə xalqının yanında olan Ulu Öndər uzaqgörən, müdrik siyasəti ilə azadlıq mübarizəsinə istiqamət verdi. 1990-cı il 17 noyabrda Naxçıvan Ali Sovetinin Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Naxçıvan MSSR adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvan Ali Sovetinin adını dəyişərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında Qərar qəbul edildi. Həmin sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsdiq edildi.

Noyabrın 21-də Ali Məclis 20 Yanvar hadisələrinə düzgün siyasi qiymət verdi və sənəddə ilk dəfə olaraq 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında "Matəm Günü" kimi qeyd edilməsi qərara alındı.

Elə o illərdə Ulu Öndərin nüfuzu və uzaqgörən siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası və Türkiyə Respublikası ilə əlaqələri yaradıldı. Qısa müddət ərzində yeni Azərbaycan uğrunda siyasi hərakat bütün Azərbaycanı bürüdü. 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası yaradıldı.

Naxçıvan Muxtar Respublikasının son illərdəki dinamik inkişafı, quruculuq və müasirləşmə baxımından bir sıra infrastruktur layihələrinin və beynəlxalq tədbirlərin burada keçirilməsinə əsas vermişdir.

Bu gün muxtariyyətinin 100 yaşını qeyd etdiyimiz ulu Naxçıvanımız çox sürətli inkişaf yolundadır. Bir zamanlar elektrik enerjisi idxal edən Naxçıvan Muxtar Respublikası indi enerji ixracatçısına çevrilib. Hazırda muxtar respublikada 3 ali, 4 orta ixtisas məktəbi, Heydər Əliyev adına Hərbi Lisey, 214 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Bir sözlə, Naxçıvan qurur, yaradır, daha nurlu sabahlara addımlayır.

**Ramal QASIMOV**

## Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliklərində publik hüquqi şəxslərin yaradılması barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətini təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində aşağıdakı publik hüquqi şəxslər yaradılsın:

1.1. Naxçıvan Muxtar Respublikası Hərracların Təşkili üzrə Auksion Mərkəzinin əsasında "Hərracların Təşkili Mərkəzi";

1.2. "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri".

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində olan "Yerquruluşu, Geodeziya və Kartoqrafiya" Məhdud Məsuliyyətli Cəmiyyətinin adı dəyişdirilərək "Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti adlandırılsın və bu Fərmanın 1.2-ci bəndində nəzərdə tutulan publik hüquqi şəxsin tabeliyinə verilsin.

3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində "Sertifikatlaşdırma və Metrologiya Mərkəzi" publik hüquqi şəxs yaradılsın.

4. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyindəki "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti ləğv edilsin.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

5.1. Bu Fərmanın 4-cü hissəsi ilə ləğv edilən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin əmlakı və ştat vahidlərinin həyata keçirdiyi funksiyalar nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin və Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sərəncamına verilməsini təmin etsin;

5.2. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim etsin;

5.3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

5.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və icrası barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

5.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

7. Müəyyən edilsin ki, bu Fərmanın 1.1-ci, 1.2-ci bəndlərində və 3-cü hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin yenidən təşkili və ləğvi ilə bağlı təsisçinin səlahiyyətləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulmuş digər səlahiyyətlərin həyata keçirilməsi isə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə həvalə edilir.

8. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi:

8.1. yanında yaradılan dövlət xidmətlərinin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işlər görülməsindən və xidmətlər göstərilməsindən əldə etdikləri vəsait hesabına Nazirliyin maddi-texniki bazasının yaxşılaşdırılması və işçilərinin sosial müdafiəsinin gücləndirilməsi üçün tədbirlər görsün;

8.2. Bu Fərmanın 1.1-ci, 1.2-ci bəndlərində və 3-cü hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin nizamnamələri təsdiq edildiyi gündən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada onların dövlət qeydiyyatına alınmasını təmin etsin;

8.3. bu Fərmanla bağlı müvafiq təhvil-təslim işlərinin həyata keçirilməsi üçün zəruri tədbirlər görülməsini təmin etsin;

8.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**
*Naxçıvan şəhəri, 9 fevral 2024-cü il*

---

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 7 aprel tarixli 157-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun Nizamnaməsi"ndə və "Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 7 aprel tarixli 157-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Fondun idarə olunması

4.1. Fond öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir. Fondun idarəetmə orqanları Müşahidə Şurası və İdarə Heyətidir.

4.2. Fondun Müşahidə Şurası (bundan sonra – Şura) Fondun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.3. Şura sədr daxil olmaqla 7 (yeddi) üzvdən ibarət tərkibdə təşkil edilir.

4.4. Şuranın 4 (dörd) üzvünü Nazirlik təyin edir.

4.5. Şuranın 3 (üç) üzvünü aşağıdakı dövlət qurumları (hər qurumdan bir nəfər olmaqla) təyin edirlər:

4.5.1. Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsi;

4.5.2. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi;

4.5.3. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi.

4.6. Şuranın sədri Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

4.7. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.8. Şura qərar qəbul etməkdə müstəqildir.

4.9. Şuranın vəzifələri aşağıdakılardır:

4.9.1. təsisçinin səlahiyyətlərini həyata keçirmək üçün müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə və Nazirliyə təkliflər vermək və sənədlər təqdim etmək;

4.9.2. Fondun fəaliyyət planlarını müəyyən etmək;

4.9.3. Nazirliyin razılığı ilə Fondun təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə qərar qəbul etmək;

4.9.4. Fondun vəsaitindən istifadə istiqamətlərini müəyyən etmək;

4.9.5. Şura üzvlərinin və İdarə Heyətinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.9.6. Fondun fəaliyyətinə dair illik hesabatı dinləmək və Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat nazirinə təqdim etmək;

4.9.7. Nazirliklə razılaşdırmaqla, Fondun maliyyə planlaşdırmasını, o cümlədən güzəştli kreditlər üzrə daxilolmaların (faiz, cərimə və sair) və fəaliyyətindən əldə olunmuş digər gəlirlərin Fondun saxlanma xərclərinə ayrılan hissəsini təsdiq etmək;

4.9.8. müvəkkil kredit təşkilatının Fond qarşısındakı borc öhdəliyinin restrukturizasiyası (öhdəliyin icrasına möhlət verilməsi) qaydasını müəyyən etmək;

4.9.9. müvəkkil kredit təşkilatının lisenziyası ləğv edildikdə və bununla əlaqədar ləğvetmə proseduruna məruz qaldıqda, Fondun vəsaiti hesabına maliyyələşdirilən kredit portfelinin hamısının və ya bir hissəsinin ləğvetməyə məruz qalmış bankdan (və ya bank olmayan kredit təşkilatından) digər müvəkkil banka (və ya bank olmayan kredit təşkilatına) köçürülən güzəştli kreditin restrukturizasiya şərtlərini müəyyən etmək;

4.9.10. Fondun müvəkkil kredit təşkilatları vasitəsilə yerləşdirilən aktivlərinin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması (o cümlədən ümidsiz aktivlərin silinməsi) qaydalarını təsdiq etmək və nizamnamə fondunun dəyişdirilməsi barədə müvafiq təkliflər vermək;

4.9.11. Fond qarşısında öhdəlikləri yerinə yetirməyən müvəkkil kredit təşkilatları ilə bağlı həyata keçirilməli daxili prosedurları nəzərdə tutan qaydaları təsdiq etmək;

4.9.12. Fondun fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), törəmə təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.9.13. İdarə Heyətinin fəaliyyətinə nəzarət etmək və onun fəaliyyətini yoxlamaq;

4.9.14. Fondun kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.9.15. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.9.16. Nazirliyin razılığı ilə Fondun xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Fondun aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.9.17. Fondun vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə iqtisadiyyatın sahələri və muxtar respublikanın rayonları üzrə prioritet istiqamətləri müəyyənləşdirmək;

4.9.18. müvəkkil kredit təşkilatlarının seçilməsi meyarlarını təsdiq etmək və onların seçilməsi barədə qərar qəbul etmək;

4.9.19. Fond ilə müvəkkil kredit təşkilatları arasında bağlanılan müqavilələrin nümunəvi layihələrini təsdiq etmək;

4.9.20. Fonda təqdim olunan investisiya layihələrinin tərtib olunmasına dair minimal tələbləri və investisiya layihələrinin qiymətləndirilmə meyarlarını təsdiq etmək;

4.9.21. kreditlərdən təyinatına uyğun istifadə olunmasına nəzarət etmək üçün monitorinq aparılması qaydasını təsdiq etmək;

4.9.22. müvəkkil kredit təşkilatları üçün əsas və əlavə limitləri müəyyən etmək;

4.9.23. Fondun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı aidiyyəti üzrə təkliflər vermək;

4.9.24. Fondun fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə baxmaq;

4.9.25. Fondun Nizamnaməsi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

4.10. Şuranın sədri rübdə azı bir dəfə Şuranın iclasını çağırır. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya İdarə Heyətinin sədri çıxış edə bilər. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.11. Şuranın üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.12. Şuranın iclasında İdarə Heyətinin sədri də iştirak edir.

4.13. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.14. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.15. Şuranın sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrası Şura sədrinin təsdiq etdiyi vəzifə bölgüsünə əsasən həyata keçirilir.

4.16. Şuranın sədri:

4.16.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir;

4.16.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslarda sədrlik edir;

4.16.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya Fondun İdarə Heyəti sədrinin xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.16.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.17. Şuranın üzvləri:

4.17.1. Şuranın səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.17.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.17.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.17.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılmaq barədə təkliflər verirlər;

4.17.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.18. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının normativ hüquqi aktlarından irəli gələn digər tələbləri yerinə yetirməlidirlər.

4.19. Şuranın iclaslarının nəticəsi Şura üzvlərinin və Şuranın katibinin imzaladıqları iclas protokolunda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Protokol Şura tərəfindən təsdiq edilərək İdarə Heyətinə göndərilir.

4.20. Şuranın katibini Şuranın sədri Şura üzvü olmayan əməkdaşlar sırasından təyin edir və katib Şuranın sədrinə hesabat verir.

4.21. Şuranın katibi:

4.21.1. Şuranın iclaslarını təşkil edir;

4.21.2. Şuranın iclaslarının keçirilmə vaxtı barədə Şuranın üzvlərinə, habelə bu Nizamnamənin 4.16.3-cü yarımbəndində göstərilən şəxslərə iclasa azı 3 iş günü qalmış yazılı məlumat verir;

4.21.3. Şuranın iclaslarının protokolunu tərtib edir və imzalanması üçün Şuranın üzvlərinə təqdim edir;

4.21.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılma və imzalanması üçün Şuranın sədrinə təqdim edir;

4.21.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.";

1.2. aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Fondun İdarə Heyəti

4-1.1. İdarə Heyəti Fondun fəaliyyətinə cari rəhbərliyi həyata keçirir.

*Ardı 13-cü səhifədə*

4-1.2. İdarə Heyətinin tərkibi üç nəfərdən – Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyəti sədrindən və sədrin iki müavinindən ibarətdir.

4-1.3. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini İdarə Heyəti üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4-1.4. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4-1.4.1. Fondun fəaliyyətini təşkil etmək;

4-1.4.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər vermək və sənədlər təqdim etmək;

4-1.4.3. Şuranın qərarlarını icra etmək;

4-1.4.4. aidiyyəti şəxslə dəyəri Fondun aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4-1.4.5. Fondun strateji məqsədlərinin və planlarının icrasına nəzarət etmək;

4-1.4.6. Fonda ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4-1.4.7. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırmaq;

4-1.4.8. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4-1.4.9. Fondun fəaliyyətinə dair illik hesabat hazırlayaraq Şuraya təqdim etmək;

4-1.4.10. Fondun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı hüquqi aktların layihələrinə baxmaq və bu layihələrə dair təkliflərini aidiyyəti dövlət qurumlarına təqdim etmək;

4-1.4.11. İdarə Heyətinin və əməkdaşların fəaliyyəti zamanı maraqlar münaqişəsinin istisna olunmasının Şura tərəfindən təsdiq edilmiş qayda və şərtlərinin icrasına nəzarət etmək;

4-1.4.12. Fondun işçilərinin say həddinin və əməkhaqlarının müəyyənləşdirilməsi üçün aidiyyəti üzrə təkliflər vermək;

4-1.4.13. Fondun fəaliyyətinə dair hesabatı ictimaiyyətə açıqlamaq;

4-1.4.14. Fondun təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə təkliflər vermək;

4-1.4.15. Şura tərəfindən təşkil edilən Fondun kənar auditinin keçirilməsini təmin etmək;

4-1.4.16. Şuranın və İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4-1.5. İdarə Heyətinin iclasları rübdə bir dəfədən az olmayaraq çağırılır. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin sədri və ya üzvü çıxış edir. İdarə Heyətinin iclasları müvafiq qaydada protokollaşdırılır və müzakirə edilmiş məsələlər üzrə qərarlar qəbul edilir. İdarə Heyətinin iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, İdarə Heyəti sədrinin (və ya onu əvəz edən digər üzvün) səsi həlledicidir.

4-1.6. İdarə Heyətinin sədri:

4-1.6.1. Fondun cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4-1.6.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4-1.6.3. öz təşəbbüsü ilə, İdarə Heyətinin digər üzvünün və ya Şuranın təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4-1.6.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4-1.6.5. sədr müavinlərinin vəzifəyə təyin olunması və vəzifədən azad edilməsi barədə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat nazirinə təqdimat verir;

4-1.6.6. sədr müavinləri arasında vəzifə bölgüsünü müəyyənləşdirir;

4-1.6.7. Fondun fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4-1.6.8. Fondun fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4-1.6.9. Fondun vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4-1.6.10. Fondun işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

4-1.6.11. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Fondun işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4-1.6.12. Fondun əmlakından onun Nizamnaməsində nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4-1.6.13. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Fondun adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4-1.6.14. Fondun fəaliyyət istiqamətləri ilə bağlı işçi qruplar yaradır;

4-1.6.15. Fondun fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4-1.6.16. kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4-1.6.17. Fondda müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir;

4-1.6.18. Fondun təsərrüfat cəmiyyətlərinin nizamnamələrinin layihələrini tərtib edir, həmin sənədlərdə müvafiq dəyişikliklər edilməsi haqqında qərar layihələrinin tərtib edilməsini təmin edir və onların təsdiqi məsələsinə baxılmaq üçün aidiyyəti üzrə təqdim edir;

4-1.6.19. Şuranın və İdarə Heyətinin qərarlarının yerinə yetirilməsinə nəzarəti təşkil edir;

4-1.6.20. verilmiş səlahiyyətlər daxilində müvafiq sənədləri imzalayır;

4-1.6.21. Fondun fəaliyyət planlarının icrasına nəzarət edir;

4-1.6.22. etibarnamələr verir, banklarda hesablaşma hesabı və digər hesablar açır, hesab və tədiyə tapşırıqlarını imzalayır;

4-1.6.23. Fondun, habelə təsərrüfat cəmiyyətlərinin maliyyə-təsərrüfat fəaliyyətinin auditinin keçirilməsi ilə bağlı qərarlar qəbul edir;

4-1.6.24. İdarə Heyətinin fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4-1.7. İdarə Heyətinin üzvləri:

4-1.7.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4-1.7.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4-1.7.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4-1.7.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxılmaq barədə təkliflər verirlər;

4-1.7.5. İdarə Heyətinin qərarları, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4-1.8. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər.".

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 7 aprel tarixli 157-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.4-cü, 3.1-ci, 3.3-cü, 3.6-cı, 3.10-cu, 4.2-ci, 6.2-ci, 9.1-ci bəndlərdə və 2-ci hissədə ismin müvafiq hallarında "İdarə Heyəti" sözləri ismin müvafiq hallarında "Müşahidə Şurası" sözləri ilə əvəz edilsin;

2.2. 1.5-ci və 1.6-cı bəndlər ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 9 fevral 2024-cü il*

# Bir səyyah ol...



Naxçıvan nəinki ölkəmizin, bütün Türk dünyasının çiçəklənən, qədim və modern dövrü özündə yaşadan əsrarəngiz bir guşəsidir. Qədim şəhərlərin xarabalıqlarının, orta əsrlərin məşhur memarlarına məxsus məqbərələrin, dünya şöhrətli sərkərdələrin tikdirdiyi memarlıq abidələrinin bir-biri ilə yarışdığı doğma Vətənim! Bir-birindən dəyərli təbii sərvətləri kimi, strateji əhəmiyyətinə görə də bütün dünyada həmişə cəlbedici olan diyarım!

Bir səyyah kimi dünyanı gəzməmişdən əvvəl öz doğma Naxçıvanımı qarış-qarış gəzməyi qarşıma məqsəd qoymuşdum. Çünki öz elindən xəbərsiz olanın dünyadan xəbəri olmasının nə faydası?! Elə bu cümləni özümə rəhbər tutub, hələ uzun illər əvvəl çantamı çiynimə asıb Naxçıvanı kəşfə çıxmışdım.

Demək olar, hər gün yanından keçdiyimiz, Naxçıvanın simvoluna çevrilən Möminə xatın türbəsinə, Memar Əcəminin digər bir şah əsəri olan Yusif ibn Küseyir türbəsinə, XVIII əsrin ortalarında Şərq memarlıq üslubunda inşa edilən İsmayıl xan hamamına, yenilənmiş Xan sarayına, öz ədəbi irsləri, yaradıcılıqları ilə Naxçıvandan bütün dünyaya işıq saçan dahilərin bir-birindən gözəl ev-muzeylərinə, şəhərin modern üslubda yeni tikilən, bərpa edilən binalarına və sadalamadığım bir çox yerli və dünya əhəmiyyətli tikililərə bu dəfə yerli bir səyyah gözü ilə baxırdım. Hələ dünyanın dörd bir tərəfindən insanların axışıb gəldiyi, şəhərə çox yaxın məsafədə yerləşən, möcüzəvi müalicə mərkəzi olan Duzdağdan nə qədər danışsam, az olar. Bütün bu tarixi-mədəni yerləri bir-bir gəzib, bir səyyah gözü ilə kəşf edəndən sonra bir an dayanıb özüm-özümə demişdim ki, mən necə gözəl və əvəzolunmaz bir yerdə dünyaya göz açmışam!

Dünyada şöhrət tapmış, ölkənin ilk qablaşdırılmış mineral suyu olan "Badamlı"sı, dörd fəsildə gözoxşayan, Üzən adası ilə dillər əzbəri olan Batabatı, ölkənin qış turizminə öz töhfəsini verən Ağbulağı ilə Şahbuzu da yad etmək lazımdır. Mənim üçün ən maraqlı abidələrdən biri Batabat yaylağında yerləşən, qayanın içində yonulmuş 4 otaqdan ibarət, xalq arasında Nizaminin "Xosrov və Şirin" poemasının qəhrəmanının adı ilə "Fərhad evi" deyilən yer idi. Bu abidə nəinki mənim, xatırlayıram, qonaqlarımızın da böyük marağına və heyrətinə səbəb olmuşdu.

***"Ordubad Azərbaycanın incisidir"***, – Ordubadı kəndbəkənd gəzəndən sonra Ulu Öndər Heydər Əliyevin bu fikrini səyahətçi ruhumla bir daha hiss etdim. Ordubadın bağlarının, böyüklü-kiçikli şəlalələrinin, əvəzolunmaz dağ göllərinin gözəlliyi insana mistik, nağılvari hisslər bəxş edir. Hələ bir neçə il əvvəl məşhur Pəzməri şəlaləsinə səyahət etdim. Şəlaləyə gedərkən yolüstü kəndlərdə Ordubad camaatının evinə qonaq oldum, məşhur paxlavasından, ölkədə təkrarı olmayan limonundan, dadlı sucuğundan və digər təamlarından daddım. Amma burada insana ən şirin gələn şey ordubadlıların səmimiyyəti, mehribanlığı və qonaqpərvərliyidir. Təbiət möcüzəsi hesab etdiyim Göygölə gedib çıxmaq nə qədər əziyyətli olsa da, buna dəyərdi!

Müasir dünyanın bir çox ölkəsində olan, fərqli mədəniyyətlərə, ecazkar təbiət mənzərələrinə şahidlik edən naxçıvanlı bir səyyah kimi sizi əmin edirəm ki, Culfa dağlarının ətəklərində gördüyüm bitki örtüyünü gəzdiyim başqa heç bir yerdə görməmişəm. Culfa deyəndə ağlımda həmişə bir xatirə canlanır. Xanəgah kəndindən xeyli aralı, insan ayağının çox az dəydiyi yerlərdən olan, "Anzır" adlanan ərazini kəşfə getmişdim. Həmin vaxt məni buludlar müşayiət edirdi. Yer, göy isə yovşan və onun qoxusuna bürünmüşdü. Sağ tərəfimdən dərdiyim kəklikotu çiyələk qoxurdu, sol tərəfimdən dərdiyim isə limon. Qarşımda Naxçıvanın təbii simvolu olan Haçadağ var idi. Burada gördüyüm bitkilər, sadəcə, kəklikotu və yovşandan ibarət deyildi. Bütün bunlardan sonra hansı ölkənin təbiəti ilə tanış olmağa gedirəmsə, onu tez Culfa ilə müqayisə etməyə başlayırdım. Amma gördüyüm bütün təbiətlərin bitki örtüyü Culfaya uduzurdu.

Hələ bir neçə ay əvvəl Əlincəqalanın və dini turizmdə öz yerini zirvədə saxlayan Əshabi-kəhfin şöhrətini duyan Almaniyadan və İspaniyadan olan qonaqlarımız Naxçıvana üz tutmuşdular. Onlar Əlincəqalanı böyük heyranlıqla foto və videonun yaddaşına köçürür, Perudakı məşhur Maçu-Pikçu qədim şəhəri ilə müqayisə edirdilər.

Bir səyyah gözü ilə muxtar respublikadan nə qədər yazsam da, kifayətsiz qalar. Elxanilərin irsini qoruyub saxlayan Qarabağlar türbəsi ilə Kəngərli, qədim Urartu dövlətinin izlərini özündə daşıyan Oğlanqala yaşayış məskəni ilə Şərur, Sirab, Vayxır, Cəhri, Qahab və başqa mineral suları ilə məşhurlaşan Babək, igidlik rəmzinə çevrilən Sədərək, ümumilikdə, ölkəmizin təkrarolunmaz bölgələrindəndir.

Bu günlərdə öz muxtariyyətinin 100-cü ilini qeyd edən Naxçıvan nəinki turizm sahəsi ilə həm də yenilənmiş infrastruktura malik yaşayış yerləri ilə də yerli və xarici qonaqlar tərəfindən sevilir, böyük rəğbət görür.

Ardı-arası kəsilmədən hər il keçirilən festivallar bu qədim diyarı daha da rəngarəng edir. Ötən ilin noyabrında Naxçıvan şəhərində keçirilən "Qərbi Azərbaycana qayıdışa gedən yol" festival-konqresi Naxçıvanı ölkə və dünya mediasının əsas diqqət mərkəzinə çevirdi.

Onu da qeyd edim ki, 44 günlük Vətən müharibəsinin regionda yaratdığı yeni reallıqlar Naxçıvanla quru əlaqəsinin bərpasını da özündə ehtiva edir. Şübhəsiz ki, Zəngəzur dəhlizi açıldıqdan, Azərbaycanın digər bölgələri ilə Naxçıvanın quru əlaqəsi bərpa olunduqdan sonra bu dəhliz doğma diyarımızı blokadadan çıxarmaqla yanaşı, xalqımızın qədim Zəngəzura qayıdışını da təmin edəcəkdir.

Otuz ildən artıqdır, çətin blokada şəraitində yaşamasına rəğmən öz inkişaf yolunu uğurla qət edən Naxçıvan Muxtar Respublikası bu gün öz muxtariyyətinin 100 illiyini qeyd edir. Bu qədim, mistik diyarın sakinlərinə ən böyük müjdə, hədiyyə isə 30 ildən sonra, nəhayət, Zəngəzur dəhlizinin açılması olacaqdır.

**Abdulla QULİYEV**



# 100 ilin qəhrəmanları

***"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində bir şəhid anasının övladı haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Culfa şəhərindən olan şəhidimiz Kənan Quliyevin anası İlhamə Quliyevanın, Kəngərli rayonunun Qabıllı kəndindən olan şəhidimiz İbrahim Əliyevin anası Xəzəngül Əliyeva və Babək rayonunun Güznüt kəndindən olan şəhidimiz Ramil Əliyevin anası Gülnarə Əliyevanın övladları haqqında xatirələri yer alıb.***

## Kənan Vaqif oğlu Quliyev

*(11.09.1992-22.10.2020)*



## Vətən torpağı oldu mənim Kənanım!



Kənan çox qeyrətli, Vətənini sevən oğlan idi. Deyirdi ki, ana, mən qürbətdə bir gün də olsun yaşaya bilmərəm. Torpaqlarımızın işğal edilməsinə dözə bilmirdi. 20 Yanvar, Xocalı və digər faciəli günlərimizdə çox kədərli görünürdü. Bəlkə də, onu hərbçi olmağa sövq edən həmin faciələr idi. İstəyinin arxasınca getdi. Əsgəri xidmətdə sürücülük edirdi. Gəlib deyirdi ki, maşınım köhnədir, tez-tez xarab olur. Deyirdim, ay bala, ehtiyatlı ol. Deyirdi, ana, nə olacaq ki, şəhid olaram. Deyirdim ki, elə demə. Deyirdi, ana, şəhidlik uca zirvədi. Kaş hər birimiz o zirvəyə qalxa bilək.

Kənan hələ müharibəyə getməmişdi ki, Culfa şəhərinin ilk şəhidi Nicat Məmmədlinin nəşinin gətirilməsi xəbərini eşitdik. Bir neçə dəqiqə sonra Kənan işdən gəldi ki, tez mənim paltarlarımı təmizləyin. Şəhidi qarşılamağa gedirəm. Dedim ki, ana qurban, yemək ye, gedərsən. Dedi, ana, hər kəs getməlidi. Sabah mən şəhid olsam, kim qarşılayacaq. Elə bil ürəyinə dammışdı.



Kənanın arzuları var idi hərbidə işə başlayanda. Ailəli idi mənim balam. Bir il səkkiz ay bəy, yeddi gün ata oldu. Onun bütün arzuları ürəyində qaldı.

Övladı dünyaya gələndə çox sevinirdi. Yerə-göyə belə sığmırdı. Bütün heyat yığışıb onun övladının dünyaya gəlməsini qeyd etmişdi. Ancaq oğlumun övlad sevinci yeddi gün çəkdi. Balasını itirdi.

Kənanım çox zarafatcıl idi. Hövsələm olmayanda elə hərəkətlər edərdi ki, mən güləm. Gülən kimi deyirdi: "Ana, güldün də, eləmi?" Birdən, olur da, arada deyirdim ki, daha səndən küsdüm. Tez gəlib deyirdi: "Ana, niyə, mən axı gedirəm. Mənə elə söz de ki, bilim incikliyin keçdi". Onu xatirələrə sığdıra bilmirəm.

Kənan şəhid olana qədər çox xoşbəxt olmuşam. Kənanlı həyatım mənim üçün əvəzolunmaz idi. Müharibəyə gedəndə evdə demədi. Bakıda olanda bildik. Müharibəyə aparanda komandiri də deyib ki, sən getməyə bilərsən. Övladını yeni itirmisən. Yox, komandir, mən getməliyəm, deyib. Vətənimi və qardaşlarımı tək qoya bilmərəm. Getdi, özü də Vətən torpağı oldu, mənim Kənanım!

## İbrahim Mustafa oğlu Əliyev

*(17.02.1997-29.09.2020)*

## Ürəyində Xocalı nisgilini daşıyan şəhidim





İbrahim dörd bacının bir qardaşı idi. Dörd qızdan yeddi il sonra dünyaya göz açmışdı. İçinə çox qapalı, öz dünyası olan övlad idi. Onun Vətənə olan sevgisini həmişə bir ana kimi hiss edirdim.

Bir dəfə qonşunun uşağı ilə televizora baxmaqları heç yadımdan çıxmır. Televizorda Xocalı faciəsi ilə bağlı veriliş gedirdi. Gördüm ki, qonşunun uşağı ilə verilişə baxa-baxa ağlayırlar. İbrahim qonşunun uşağına deyir ki, bax, bir azdan yenə uşaq cəsədləri gətirəcəklər. Gördüm ki, hər ikisi çox narahatdır. Tez gəlib televizorun qabağında durdum. Durdum ki, İbrahimlə qonşu uşağı onları görməsin. Sonra da hirsləndim ki, çölə çıxsınlar. Sən demə, İbrahim ermənilərin Azərbaycan xalqının başına açdığı faciələri izləyə-izləyə içində düşmənə nifrət böyüdüb.



İbrahim heç vaxt özü ilə bağlı şənliklərin keçirilməsini xoşlamazdı. Nə özünə ad günü, nə də əsgərliyə gedəndə belə ona qonaqlıq keçirməyimizə razı oldu. Amma İbrahim öz kəndinə, torpağına elə qayıtdı ki, bütün xalq, bütün naxçıvanlılar onu qarşıladı.

Evin tək oğlu olduğuna görə hərbi liseyə getməyini istəmirdim. Deyirdim ki, yaxşı oxuduğuna görə universitetlərin hər hansı birinə qəbul olar. Ali təhsil alar. Ancaq gördük ki, ona mane ola bilmirik. İbrahim israrla o sənəti seçdi. O sənəti seçdi və o sənətə layiqli xidmət etdi. Şəhid kimi ata-anasının yanına qayıtdı.

İbrahimin çox gözəl gözləri var idi. Ancaq şəkil çəkdirəndə gözlərini eynəklə gizlədərdi. Məzuniyyətə gələn zaman bacıları ilə birlikdə şəkil çəkdirdi. Ailəsi ilə son şəkli oldu. Bacılarının israrına baxmayaraq, yenə eynəyini çıxarmadı. Yenə gözlərini gizlətdi. Son dəfə belə bizi gözlərini görməkdən məhrum etdi.

Sentyabrın 26-da gələn zəng son zəngi oldu. Atasına dedi ki, ata, biz gedirik. Atası dedi ki, hara? İbrahim cavab verdi ki, Qarabağa. Demə, oğlum şəhid olmağa gedirmiş. Atasının, anasının yanına qəhrəman kimi qayıtmaq üçün gedirmiş. Şəhid olmaq arzusuna çatmaq üçün gedirmiş.

İbrahim nişanlı idi. Bütün arzularını, bütün istəklərini özü ilə apardı. Əvəzində bütöv Vətəni bizə bağışladı. Amma özü bu Vətəndə doyunca gəzə bilmədi. O, bütöv Azərbaycanın vətəndaşı olmasa da, Vətən daşı oldu. Biz övladımızla qürur duyuruq. Vətən sağ olsun!

## Ramil Qurban oğlu Əliyev

*(22.03.1996-28.09.2020)*

## Bir gün şəhid olsam Vətən elində



Ramili balaca vaxtlarından Vətənini sevən uşaq kimi hiss etmişdim. Heç yadımdan çıxmaz, hələ hərbi liseydə oxumurdu. Televizorda 20 Yanvar, Xocalı faciələrinə baxdıqca elə hey əsəbiləşirdi. Deyirdi ki, ana, bax, bu insanların qisasını biz alacağıq. Onların qanını yerdə qoymayacağıq. Qarabağa bayrağı da biz sancacağıq. Onlara baxdıqca elə həyəcanlanırdı ki, əlində olsaydı, balaca vaxtında döyüşə gedərdi. Bu hadisələr onun hərbi liseyə getməsinə səbəb oldu. Düşməndən intiqam almaq onun ən böyük arzusu idi.





Ramil o qədər mehriban idi ki, hər məzuniyyətə gələndə də, məzuniyyətdən qayıdanda da bütün qohumlarımızı görməyə gedirdi. Deyirdim ki, ana qurban, bəs gələndə görmüsən. Cavab verirdi ki, ana, gəlmək ayrı, getmək ayrıdır. Qoy heç kimin gözü yolda qalmasın.

Ramil çox həssas idi. Sanki şəhid olacağını bilirdi. Bu haqda dayısına və dostlarına da demişdi. Hətta 2016-cı ildə qeyd dəftərinə aşağıdakı şeiri də yazmışdı:

*Bir gün şəhid olsam Vətən elində*
*Qoymayın nəşimi düşmən əlində.*
*Gözləyin yolumu Arazın sahilində –*
*Öz ata yurduma göndərin məni.*

Ramil elə qayğıkeş idi ki, mənə qız övladımın olmamağını da unutdurmuşdu. Mən Ramili itirəndən sonra elə biliram ki, mənim heç nəyim yoxdur. Elə bil ki, heç olmayıb. Demirəm, Röyal var, atası var. Amma Ramil mənim həyatım idi.

Sentyabrın 26-sı qardaşı Röyalın ad günü idi. Sonuncu dəfə onda qardaşı ilə danışmış, həm də mesaj yazmışdı. Mesajı çox uzun idi. Sanki vidalaşırmış qardaşı ilə. Yazmışdı ki, qardaşım, səni təbrik edirəm. Sən sağ-salamat ol. Atam-anam sənə əmanətdir. İnşallah ki, sənin də toyunu edərlər. Mən o günü sənə arzulayıram. Onlara yaxşı bax.

Elə həmin danışığın onun son danışığı olduğunu haradan biləydim? Atası ilə də danışdı. O danışırdı, mən baxırdım. Dedi ki, ana, niyə danışmırsan. Danış ki, səsini eşidim. Ona evimizə sağ-salamat qayıtmasını arzuladım. Demə, son danışığımız imiş. Bir daha balamın səsini eşitmədim.

# Söz tələbə jurnalistlərindir

## Şərqin qapısından – Naxçıvandan hər kəsə salamlar!

Gəlin Vətəni neçə əsrlər bundan əvvəl partlayış edərək sönən bir vulkana bənzədək. Bəzi daşları partlamış bir vulkanın qurumuş lavaları təsəvvür etsək, Naxçıvan da bu vulkanın həmin daşıdır. Kökü, tərkibi vulkana aid olan, özü isə vulkandan, yəni Vətəndən ayrı düşən, Şərqin qapısından – Naxçıvandan hər kəsə salamlar! Zamanın gərdişlərindən keçərək qədim daş dövründən muxtariyyət zamanına qədər neçə minillikləri arxada qoymuş bir diyar! Olduğumuz yerdən üfüqlərə baxsaq, hər tərəfdə dağları görmək mümkündür. Dağdan çox qala desək, daha düzgün olar. Əmir Teymurtək bir hökmdarın öhdəsindən bir neçə dəfə bu diyarın uca zirvələri gəlib.



Neçə ziyalı, neçə qəhrəman yetişdirən bu diyarda lazım gəldikdə qılıncda Atabəy Eldəniztək məğrur, qələmdə isə Ordubadi tək səlis olduq. Yeri gəldi kövrəldik Hüseyn Cavidtək romantik, İslam Səfərli, Məmməd Araztək nəğməkar olduq. Yeri gəldikdə at belində Kalbalı xan olaraq Vətəni qoruduq, yeri gəldikdə isə mətbuatda Mirzə Cəlil olduq. Baxmayın, bu şəxsiyyətlər fərqli dövrlərin adamlarıdır. Hər biri eyni diyardan səslənib tarixə. Bu diyarın insanlarına məkan fərq etməz. Bizi bəzən Şuşadakı bir dağa qalxarkən də, hər hansı bir ağacın kölgəsində əldə qələm, dizdə vərəq düşünərkən də görə bilərsiniz.

Adımızı tarixdə Naxçıvan xanlığı, Naxçıvan Muxtar Diyarı, Naxçıvan MSSR və başqa adlarla da görə bilərsiniz. Yüz il əvvələ qayıtsaq, görərik ki, tarix 1924-cü ilin keşməkeşli bir dövrünü göstərir. Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR adı altında muxtariyyət əldə etməyimizdən 100 il keçir. Ən yaxın tariximiz belə 100 ildirsə, bu Vətənin kökləri qoca bir çinartək çox dərinlərə enir deməkdir.

Naxçıvan lavalardan olan bir daşdır. Lakin o daş çoxdandır ki, artıq bir üzük üzərində yerləşən yeddi daş-qaşı, yəni yeddi regionunu öz üzərində birləşdirən yeddi daşdan ibarətdir. Naxçıvanın yaşlısından gəncinə hər bir kəs bu Vətənin bir daş-qaşıdır. Sizsiz nə Vətən, nə də vətəndaş olar. Məncə, bu yüzilliklər və bu təbriklər Naxçıvana azdır.

Ey qəhrəman diyarın, qəhrəman övladı, quru Vətəni təbrik etmək boşdur. Biz və siz bu Vətəni Vətən etdik. Mən Naxçıvanı yox, Naxçıvanı Naxçıvan edən sizi təbrik edirəm!

**Rafiq TƏHMƏZOV**

## Qəlbimin sevgili yarı Naxçıvan!



Naxçıcahan... Bu adla qəlblərdə taxt quran doğma yurdum, Naxçıvan! Gündən-günə abadlaşan, gözoxşayan əziz diyar! Mehriban, səmimi insanları, barlı-bərəkətli torpağı, bol bəhrəli bağları, qədim tarixi keçmişi, görkəmli şəxsiyyətləri ilə seçilən Azərbaycanın gözoxşayan incisi! Muxtariyyətinin 100 yaşı mübarək! Gün o gün olsun ki, min əsrlik yubileylərin yenə də təmtəraqla qeyd olunsun!

Çünki sən bu 100 ildə çox sınaqlardan üzüağ, alnıaçıq çıxmısan. Başından çox qara buludlar keçib, amma yenilməmisən, büdrəməmisən, əzmini itirməmisən. Ulu qüdrətin heç vaxt sarsılmasın. Hər zaman olduğu kimi bundan sonra da səsin zirvələrdən gəlsin! Qalib ölkənin zəfər sevincinə 100 illiyinin şərik olması biz gənclər üçün böyük qürurdur. Dörd bir yanda ən şərəfli işlərdə adıçəkilən saysız-hesabsız övlad yetirmisən və yetirirsən! 44 günlük Vətən müharibəsində də öz mərd igidlərin sənə başucalığı gətirib! Adın, sanın bundan sonrakı illərdə, əsrlərdə də şərəflə anılsın, əziz diyar, Naxçıvan!

**Nəzrin İSMAYILOVA**

## 100 ilin baharı, 4 illimin hər anı...



Bəşəriyyətin beşiyi, mədəniyyətin incisi, Naxçıvan!

Muxtariyyətin mübarək, 100 ilin səltənəti!
100 illiyin mübarək, igidlər əsəri!
Səni sevirəm, 100 ilin incisi!
Səni sevirəm, qocalmaz diyar!
Səni sevirəm, Naxçıvan!
Səni vəsf edənlərin dura-dura mən necə alım əlimə qələmi?

Mən susum, Cəlilin yazsın, Hüseynin danışsın, tabloma çəkməyim, Bəhruzun çəksin, fikrimdə qurub-yaratmayım səni, Əcəmin qursunyaratsın, mahnı bəstələməyim sənə, Arazın bəstələsin, gəlməyim dərsinə, qoy Sidqin gəlsin... vəsf etməyim səni, Səfərlin etsin... qələmini mən yox, Ordubadin tutsun...

Qoy 100 ilin muxariyyətini yetişdirdiyin ölməz sənətkarlar təbrik etsin. Mən isə, sadəcə, seyr edim... Mən seyr edim, onlar isə səni yenidən yaratsın!

Necədir? Bəyəndin? 100 ilini sözlə, az da olsa, yaratmağa çalışdım. Dəryadan bir damla kimi... İndi gəlsin, muxtariyyətin ölməz sənətkarı, dahin sənin, hə, sənin bizə bəxş etdiyin ölməz şəxsiyyətin! Hə, o dahin ki, dünyaya səs salan, tarixə iz salan Heydərin imza çəksin! Onun qələmindən bir də baxaq sənə... Doyunca...

100 ilin mübarək, bütöv Vətənim!
Danış, Naxçıvan, nəfəsini hiss edim, ahəstə-ahəstə...
Pıçıldayım qulağına, yavaşca, bəstə...
Baxım o məğrur duruşuna, təəccüblə, məstə...
Muxtariyyətin, minilliklərə söykənən tarixin mübarək!

Roman yazım muxtariyyətindən, igid oğullarından, mərd qızlarından, yenilməz Sədərəyindən, Şahbuzun təbiətindən, Babəkin duruşundan, Şərurun yallısından, Ordubadın Sərşəhərindən, Kəngərlinin irsindən, Culfanın Əlincəsindən...

Qələm alıb yazım səndən səhifə-səhifə, kitab-kitab...
Ey 100 illin bənzərsizi, mən səndən yazsam...
Axan Arazında sular dayanar,
Mən səndən yazsam.
Batabatın qışda yay olar
Mən səndən yazsam.
Düşüncəm dərya olar
Mən səndən yazsam...

Doymadım yazmaqdan, səni vəsf etməyə çalışdım, amma... əbədiyyətdən boylanan Məmməd Arazın qədər yox!..

Mən burdan baxıram bütün aləmə,
Bu yerin qışı da yazımdır mənim.
Axan çaylarına lal sudur demə,
Onlar min nəğməli sazımdır mənim.

Səni bütün ruhumla təbrik edirəm, 100 ilin baharı... 4 illimin hər anı...

**Şəfa YAZAR**

## Nuhun yurdu, qədim diyar, Naxçıvan!



Azərbaycanın qədim diyarı, mərd və qoçaq insanların məskəni, Naxçıvan! Sən bu günə qədər çox sınaqlardan keçmisən, keşməkeşli günlər görmüsən… Amma öz tarixi irsini, adət-ənənələrini qoruyub saxlamısan! Cənab Prezidentin imzaladığı Sərəncama əsasən bu il muxtariyyətinin 100 yaşını qeyd edirsən. Müstəqilliyin bəhrələrindən güc alaraq, Ümummilli Liderin ideyalarını sədaqətlə yaşadaraq sabaha inamlı addımlarla irəliləyirsən! Qədim Nuh yurdu! Əziz muxtar respublika! Sənə 100-dən sonra neçə-neçə yüzilliklər, minilliklər diləyirəm! Bütün yubileylərini böyük uğur və nailiyyətlərlə qeyd edək, qədim diyar!

**Sevda NƏSİR**

## Yubileyin mübarək, əzəmətli yurdum!



Biz sənin hər qarışına heyran gənclərik, əziz Naxçıvan! Qəhrəman igidlərinlə, zəngin mədəniyyətinlə, qədim keçmişinlə, görkəmli şəxsiyyətlərinlə öyünmüşük, fəxr etmişik hər zaman... Üç fərqli mədəniyyəti özündə birləşdirən, lal Arazı ağuşuna alıb ona layla deyən, əziz Vətən! Atabəyin qüdrəti, uca dağlarının əzəməti qədər, qüdrətli və əzəmətlisən! Qarlı, soyuq dağlarının ardında isti nəfəsli, cana yaxın insanların səni hər kəsə doğma edir! Əsrlərdən bəri bütün çətinliklərə sinə gərən, əzəmətli Naxçıvan! Bu il sənin muxtariyyətinin 100 illik yubileyidir. Nəinki 100 il, sən hələ neçə-neçə əsrlər qərinələr boyu könüllərdə taxt quracaq, gündən-günə daha da gözəlləşib, dünyaya səs salacaqsan!

**Dilarə NƏCƏFLİ**

## Muxtariyyətinin 100 yaşı mübarək, qocaman diyar!



Tarixi minilliklərə şahidlik edən qədim diyar, Naxçıvan! Bu gün sənin torpağının hər qarışında duyulan rahatlıq, firavanlıq insanların mənəvi dünyasına sirayət edir! Qələm sahibləri sənə olan heyranlıqlarını gizlədə bilmir, sənin şəninə şeirlər yazır, büsatına nəğmələr qoşurlar.

Böyük şəxsiyyətlər yurdu – Naxçıvan! Sən Azərbaycana böyük mütəfəkkirlər, elm, incəsənət, mədəniyyət xadimləri, siyasi xadimlər, böyük sərkərdələr bəxş etmisən! İsmayıl xan, Kalbalı xan, Hüseyn xan, Cəmşid Naxçıvanskilər kimi hərbi xadimlər yetirmisən. Mirzə Cəlil, Hüseyn Cavid, Bəhruz Kəngərli, Məmməd Səid Ordubadi, Məmməd Araz kimi unudulmaz simalarla tanınmısan!

Azərbaycanın xilaskarı, böyük dövlət xadimi, Ümummilli Liderimizin əziz Vətəni olmusan! Bu gün sənin qoynunda böyüyüb boya-başa çatan, yaşayıb-yaradan şəxsiyyətlərinin ruhu şaddır! Çünki sən 100 ilini başucalığı ilə başa vurursan! Hələ neçə-neçə yüzilliklər, minilliklər qürurla çəkiləcək adın! 100 yaşlı əziz diyarım! Muxtariyyətinin yubileyi mübarək!

**Çinarə HƏSƏNOVA**

## Mənim könlüm bir ümmandır

Mənim könlüm bir ümmandır ki, ora Vətənimi, ailəmi, dünyamı sığdırmışam. Min illərin tarixini, dünənimi, bu günümü sığdırmışam. Ulu diyara gəlişimdən 3 il keçir. 3 ildir ki, buradayam. 100 illik muxtariyyəti olan bir diyarda, min illərin sərt qışından, selindən, istisindən üzüağ çıxan, qonşu xəyanətlərinə sinə gərən müqəddəs və qəhrəman bir yurddayam. Mən, Naxçıvandayam. Fəxr edirəm ki, belə bir yurdun qoynundayam, təhsilimi burada alıram, karyera yoluma buradan davam edirəm. Burada formalaşan və heç vaxt itməyən dəyərləri, qocaya hörməti, uşağa nəzakəti daha çox görürəm. Nuh babamın əmanəti Naxçıvan, vüqarlı dağları, əsrarəngiz çölləri ilə ellərə səs salmış, tarixi, mədəniyyəti ilə alimləri heyran qoymuş qəhrəmanlar diyarım.

Naxçıvana gəldiyim gündən bəri burada olan inkişaf, tərəqqi, o cümlədən gənclərə göstərilən dəstək hər zaman diqqətimi cəlb edir. Hər qarışında qəhrəman, hər yerində mərhəmət var buranın. Ey qəhrəman Vətənin 5 minillik ərməğanı, muxtariyyətini almış qoca çinarsan sən, 100 ildir, çiçəklənirsən, min illər də çiçəklənib, pöhrələnəcəksən. Sən bu qoca Şərqin qapısısan, hər kəsə qucaq açan məkansan.



Bu torpağın oğulları da, qızları da ayılməzdir. Bu torpaq, bu yurdun oğulları dünyada hər zaman birinciliklə tanınır, hər bölgəsi, hər tərəfi cənnətməkan, hər qarışı doğmadır. Ağsaqqalı, ağbirçəyi gözəl sözlü, nur üzlü, qonaqpərvər, vətənpərvərdir Naxçıvanın.

Bu diyar Nuh babamızın məskəni, qəlbimin hakimi, Azərbaycanın canı, ayrılmaz parçasıdır. Azərbaycanın tarixi torpağı, müqəddəs ocağı, cənnət məkanıdır.

Mənim könlüm təkcə mənim yox, bütün Azərbaycanın könlü, fəxri olan bu doğma diyar özündə möhtəşəm bir tarix yaşadır. Onun qanadları sanki Möminə xatın türbəsi, nəfəsi Batabat, danışan dili Hüseyn Caviddir.

Naxçıvanım! Gözəl diyarım, əzəmətli, vüqarlı torpağım! İstəyirəm biləsən ki, Cəlilabad rayonundan başlayan yolum səninlə davam edir. Bu yurda olan sevgim qəlbimin lap dərinliklərindədir, onu orada, mənəviyyatımda saxlayıram mən. Günügündən gözəlləşir, müasirləşir.

Öz doğma diyarını sevməyi ancaq qəlbində Vətən sevgisi olan, daim ürəyi Vətən eşqi ilə döyünənlər bilər. Bu uca torpağı insan ən saf yeri olan qəlbində saxlaya bilər, könlündə yaşada bilər.

***100 ilin mübarək, Vətənimin oğlu, Nuh babamın yadigarı, sən hər zaman seviləcək və yaşayacaqsan.***

**Əli YARIYEV**

***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

*Xalq təqvimi*

# Xıdır Nəbi, Xıdır İlyas, bitdi çiçək, gəldi yaz...



Kiçik çillənin ilk ongünlüyündə türk xalqlarının bir çoxunda sevilərək icra olunan xalq mərasiminin adı elə xalqın özünün qədimlərdən sakrallaşdırdığı, tapındığı Xızır adlı müqəddəs şəxslə – Peyğəmbərlə bağlıdır. Əslində, bu obrazın əsl xarakterik xüsusiyyətləri də insanlığa, bəşəriyyətə xoş əhvali-ruhiyyə bəxş etməkdir.

Kiçik çillənin ilk onuncu günü Xıdır Nəbi mərasimi qeyd edilir. Xalq yaddaşında mövcud olan inanca görə, Xıdır Nəbidən üç gün əvvəl, üç gün də sonra yel əsər. Bu yel "Xıdır yeli" adlanar və bu yel güclü olar. Yel əsməyə başlayanda hər tərəf toz-torpağa bürünər. Xalq söyləmlərinə görə, bu toz-torpaq Xıdırın əfsanəvi atının təpiyindən qopan tozdur. Xıdır öz gəlişini belə bildirər. Üç gün sonra əsən yel Xıdırın getdiyini bildirər. Yenə hər tərəf toza, dumana bürünər. Aləmə bolluq, bərəkət, istilik, yaşıllıq bəxş edən Xıdır, xalq inancına görə, özü yaşıl geyimli, atı isə boz rəngdədir.



Naxçıvan Muxtar Respublikasının şəhər və kəndlərində Xıdır Nəbi mərasimində ən çox sevilən nemət buğdanın qovrulmuşudur. Əgər əvvəllər təkcə buğda qovrulardısa, hazırda başqa dənli bitkilər də əlavə olunaraq qovrulur. Xıdır Nəbi mərasiminin simvolik yeməyi kimi məşhur olan qovutun hazırlanması mərasimin özəlliyini vurğulayır. Undan və şərbətdən hazırlanan qovut istilik yaradan yeməkdir. Həm də ona görə hazırlanır ki, soyuq, sərt keçən çillə bu istilikdən "qorxsun". Bu da insanların "ərköyün və ziyankar" Kiçik çillənin onlara, təsərrüfata vuracağı ziyanın qarşısını almaq istəyini ifadə edir. Havaların olduqca soyuq keçməsindən ehtiyat edən etnos təbiətin ona xoş davranması üçün qurbanvermə, itaət etmə rituallarını həyata keçirirdi. Bunun qalıqları hazırda qovutun hazırlanması mərasimində özünü qoruyub saxlamaqdadır.

Qovut hazırlanması mərasiminin təşkilatçıları olan qadınlar Kiçik çillə girəndən buğda tədarükünü aparırlar. Beləliklə, buğda qovrulur. Qovrulan buğda əl dəyirmanında döyülür. Döyülən buğda una çevrilsə də, iri dənələrin qalmağı qovutu daha dadlı edər. Üzərinə yağ, su ilə yanaşı, qovuta hazırda şəkər də əlavə olunur. Lakin əvvəllər qovut üçün seçilən buğda şirin buğda növündən olurdu və ona şəkər əlavə edilmirdi. Belə qovut daha dadlı olardı. Hazırlanan qovut kiçik qablarda evin dörd küncünə qoyulur. Etiqada görə, Xıdır gəlib qovuta barmaq basacaq. O hansı qovutun üzərinə barmağını basarsa, həmin qovutu gələn ilə saxlayarlar. Bu, bərəkət rəmzidir.

Həm də bu, Xıdırın həmin evə bolluq, bərəkət arzusunu ifadə edən inancdır. Bu baxımdan xalq arasında bərəkətli olan ruzi, tükənməz var-dövlət haqqında belə deyərlər: "Buna Xıdırın əli dəyib".

Əvvəllər Xıdır Nəbi bayramı yalnız qadınlar tərəfindən icra edilərdi. Naxçıvan Muxtar Respublikası ərazisində bu bayramın əsas icraçıları indi də qadınlardır. Belə ki, mərasimin xoş keçməsi, ilin bərəkətli, xeyirli olmasını arzulayan qadınlar evlərdə təmizlik işləri aparır, qonşu və qohumlarda olan qadınlar bir evə toplaşıb nəğmələr oxuyar, şirniyyatlar bişirərlər. İnanca görə, insanlar üçün Tanrıdan bolluq diləyən Xıdır obrazı təmiz olan evdə çox qalar. Həm də həmin mərasim dönəmində insanlar bir-biri ilə mehriban münasibətdə olmalıdır.



Türk xalqlarında olan mifik inanca görə, Xıdır Nəbinin iki qardaşı da var. Yəni Xıdır Zinda, Xıdır İlyas və Xıdır Nəbi üç qardaşdırlar. Xıdır Zinda çətinlikdə olanlara Tanrıdan aman, rəhm diləyər. Xıdır İlyas sudan insan üçün təhlükə yarananda köməyə çağırılar. Xıdır Nəbi isə qıtlıqdan, kasıblıqdan əziyyətə düşənə Tanrıdan kömək istəyər. Həmin mifik inancın qalıqları indi yaddaşlarda qorunan bir el kəlamında belə ifadə olunur: "İşlərin çətinlikdədirsə, Xıdır Zindanı çağır. Suda boğulanda, ya da susuzluqdan əziyyət çəkəndə Xıdır İlyası, kasıbsansa, ruzin yoxsa, Xıdır Nəbini səslə". Təsadüfi deyil ki, Azərbaycanın bəzi regionlarında, eləcə də bəzi türk xalqlarında Xıdır Nəbi mərasiminə Xıdırəlləz də deyərlər.

Naxçıvan ərazilərindən topladığımız inanc nümunələrinə əsasən Xıdır Nəbi mərasiminin fevral ayının 10-na qədər mövcud olan ilk cümə axşamında qeyd edilməyi məqbul sayılır. Bu da dini faktorların xalq mərasimlərinə, mərasim yaddaşına təsirinin nəticəsidir.

Qərbi Azərbaycanın Dərələyəz mahalından qaçqın düşən əhalinin Xıdır Nəbi mərasimi ilə bağlı keçirdikləri rituallar iki mərhələli olur, yəni iki gün ərzində icra edilir. Məsələn, Ordubad rayonunun Parağa kəndində məskunlaşan Dərələyəz mahalının ağbirçəkləri – Lalə Məmmədova və Ölkə Xudayeva bacıları bu mərasimlə bağlı maraqlı faktları belə təsvir edirlər: "Xıdırın birinci günü, yəni fevralın 4-ü "Xıdırın qovurğa günü"dür. Bu gün yalnız dənli bitkilərdən – buğda, qarğıdalı, küncüt qovrulur. Qovurğanı hazırlayanda gənc qızların falına da baxarlar. Sacı qoyurlar ocağın üstünə, buğdanı da subay qızlar hərəsi özü bir-bir atır isti sacın üstünə. Belə deyərlər ki, hansı buğda tez çırtlasa, onun "sahibi" subay qız o il ailə quracaq. Hansı çırtlamadısa, deməli o buğdanın sahibi "qalax qalacaq", yəni evdə qalacaq".

Bu ərazidə insanlar Xıdır Nəbi mərasiminə həm də "yeddiləvin" deyirlər. Bu da həmin gün süfrədə yeddi cür çərəzin olmasını ifadə edir: ərik qurusu, qovurğa, qovut, cəviz, kişmiş, noxud, ərik dənəsi bu gün mütləq süfrədə olmalıdır. İkinci gün, yəni fevralın beşi "xəşil günü" adlanır. Bu gün mütləq evlərdə xəşil bişirilməlidir və ailənin hər üzvü də bu xəşildən yeməlidir. Xəşil ya bal, ya da doşabla və adətən, səhər tezdən yeyilir. Xıdırın ən maraqlı tərəflərindən biri də Xıdır payı yığmaq adətidir. Xıdır payı toplamaq məqsədilə evlərə üz tutan uşaqlar qapılara yaxınlaşanda ev yiyəsinə maraqlı poetik mətnlərlə müraciət edərlər:

*Xıdır, Xıdır, Xıdır Eylas,*
*Bitdi çiçək, oldu yaz.*
*Mən Xıdırın nalıyam,*
*Başının papağıyam.*

Xıdırla bağlı Dərələyəz mahalında qadağalar da vardır. Deyərlər ki, Xıdır Nəbi bəndərgahdır, yəni Xıdırın xoşuna gəlməyən, bəyənmədiyi işləri görməzlər. Bu gündə baş yumazlar, suya düşməzlər, paltar yumazlar, gecə şər vaxtı isti suyu həyətə atmazlar.

Kiçik çillənin gətirdiyi soyuq havadan, şaxta-borandan qorxu, onun qarşısını almaq üçün qədimdən indiyədək gəlib çıxan ayinlərin icrası, yaşıllıq, istilik, bolluq gətirən Xıdıra xoş münasibət arxaik təsəvvürlər sisteminin müasir dövrdə yaşayan izləridir. Bütün bunlar da qədim türk dünyagörüşünün ifadəçisi kimi böyük mahiyyət kəsb etməkdədir.

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Ordubad və Əndəlüs
## onları birləşdirən nədir?

***Meydanlar, taxta qapılar, limon ağacları...***



*Ordubad*



*Əndəlüs*

Bu yaxınlarda televiziya kanallarının birində İspaniyanın tarixi və mədəniyyətinin qədimliyi ilə seçilən, İslam mədəniyyətinin Avropadakı mirası hesab edilən Əndəlüs (Andalusiya) vilayəti haqqında süjetə baxırdım. Xarici şəhərlər barədə hazırlanan süjetlər çoxumuzun diqqətini çəkir, lakin bu dəfə mənim diqqətimi Əndəlüsün muxtar respublikanın Ordubad bölgəsi ilə oxşar tarixi xüsusiyyətlərə malikliyi cəlb etdi. Ordubad şəhərinin tam müasir formasını Əndəlüs bölgəsinin və onun özündə hələ də islami dəyərləri daşıyan Qranada, Ronda kimi şəhərlərinin timsalında gördüm.

Qeyd edim ki, Əndəlüs ərəb dövləti olan Əməvilər sülaləsinin dövründə yaranıb. Hazırda İspaniyanın cənubunda yerləşən bu bölgə bu gün də ərəb mədəniyyətinin təsirini özündə daşıyır.

Yaxşı, bəs bizim qədim tarixi, mədəniyyəti, adət-ənənələri ilə seçilən doğma Ordubadımızla oxşarlığı nədədir? Əvvəlcə özündə İslam mədəniyyətinin izlərini əks etdirən memarlıq üslubunda deyərdim. Hər iki bölgə öz qədimliyini qoruyub saxlayıb. Daşından taxtasına qədər hər yerə xüsusi diqqətlə yanaşılması məhz bu tarixi qədimliyin insanları cəlb etməsinin başlıca səbəbidir. Hər iki bölgə öz ölkəsinin, dövlətinin mədəniyyətini layiqli şəkildə təmsil edir. Hər ikisi qədim məscid, muzey və digər tarixi abidələri ilə seçilir. Hər iki bölgənin təbiət mənzərələri olduqca xoş təsir bağışlayır. Memarlıq nümunələri, tarix qoxan küçələri, məhəllələri sanki nağılvari bir mənzərə yaradır.

İkisi də İslam tarixini öyrənmək baxımından önəmli yerlərdir. Qranadadakı Əlhambra sarayı hazırda muzey kimi istifadə edilir və onun üzərində "Allahdan başqa qalib yoxdur" sözləri yazılıb. İstər Ordubaddakı məscidlərimiz, istərsə də Əndəlüsdəki belə tarixi yerlər üzərindəki elementləri, naxışları ilə bütün Avropaya İslam dininin böyüklüyünü çatdırır. Bu mədəniyyətin izlərini həm də onların islam memarlığı üslubunda tikilmiş, uçuq-sökük olsa da, özündə qədim tarix daşıyan məhəllələrinin timsalında, məscidlər üzərindəki ornamentlərdə, şəbəkə üslubundan istifadədə aydın görmək olur. Hər ikisi sanki düşmənlərdən qorunmaq üçün qala kimi inşa edilib. Hər iki bölgənin danışdığı dildə (Azərbaycan və ispan) ərəbcədən keçən çoxlu sözlər vardır. Hər iki bölgədə və Əndəlüsün Qranada və Ronda şəhərlərində meydanların və bağların olması oxşar xüsusiyyətlərdəndir. Bilirsiniz ki, Ordubad qədimdən bağlar diyarı adlandırılıb. Ordubadda Sərşəhər, Anbaras, Mingis meydanları vardır. Hər ikisi çeşmələri, dar küçələri, limon ağacları ilə seçilir.

Süjetdə diqqətimi cəlb edən əsas məqamlardan biri də Əndəlüsün Ronda şəhərində qədim üslubda inşa edilmiş taxta qapılar idi. Bu qapılar bölgənin ən önəmli simvolları sayılır. Ordubadda da qədimlərdən mövcud olan taxta qapılar ən çox turistlərin diqqətini cəlb edir. Əndəlüsdəki qapılar da Ordubaddakı kimi iki taqqılbablıdır və onlardan biri kişilər, o biri isə qadınlar üçün nəzərdə tutulub. Ordubadda buna taqqılbab (kişiyə aid qapı zəngi) və zəncirbab (qadına aid qapı zəngi) deyilir. Səsləri fərqli olan bu evlərin qapıları sırf məhrəmiyyəti qoruyub saxlamaq məqsədilə düzəldilib.

İslam mədəniyyətinin zəngin və özünəməxsus izlərini daşıyan hər iki bölgə mütləq kəşf edilməli yerlər sırasındadır.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Hər daşı bir tarix dərsi, hər qayası bir kitabdı



Qardaş-bacım, hər qarışı müqəddəsdir bu torpağın,
Düşmənsənsə göz çıxardar, dostsan əgər süfrə açar.
Dörd tərəfdən sərhədimə keşik çəkən Haçadağın
Ətəyindən əsən yellər gül qoxuyar, ətir saçar.

Bu yerlərin çaylarının şırıltısı nəğmə kimi
Ruhuma bir sığal çəkər, hisslərimi tumarlayar.
Kim ki gəlib gəzib görsə mənim doğma şəhərimi
Deyəcək ki, bu dünyada yoxdu belə gözəl diyar.

Göy qurşağı göy üzünün yeddi rəngli möcüzəsi,
Yerdəki göy qurşağını Duzdağına baxan görər.
Mənim yaddaş saxlancımdan qopub gələn yallı səsi
Çətin gündə el-obanı yumruq kimi birləşdirər.

Hər daşı bir tarix dərsi, hər qayası bir kitabdı,
Gəmiqaya daşlarını birləşdirsən dastan olar.
Sərhədimdə duran əsgər sərt nidalı bir xitabdı,
"Dur" əmrini dinləməyən qurd ürəkli dostdan olar.

Batabatım allı-güllü don geyinmiş nazlı gəlin –
Şeh çiçəkli tellərini xəfif səhər mehi oxşar.
Altı-üstü əsatirdi, əfsanədi bu bölgənin –
Arpaçayın sularına Xançobanım nəğmə qoşar.

Araz mənim lal axışlı, dərd baxışlı duzlu yaram,
Fəryadını duya bilsək içimizi göynədəcək.
Kədərimi Məlikməmməd inadıyla duzlayaram
Bilirəm ki, vaxt gələcək arzularım göyərəcək.

Bol məhsullu zəmilərin hər şırımı alın təri,
İnsanların əl qabarı qürur yeri, üz ağlığı.
Bu torpağı zəhmət ilə əkib-biçən gündən bəri
Tikan bitən çöllüklərdə çiçəklədi meyvə bağı.

Bir zamanlar zülmət olan bu yer indi nur yurdudu,
Ulduzları qısqandırar gecələrin işıq seli.
Naxçıvandı – Nuh çıxandı, bura qədim Nuh yurdudu,
Hara baxsan Tanrı işi, hər addımda Tanrı əli.

Təmizliyi könül açır, xoş havası ruha dolur,
Nə yaz, nə yay, nə payız-qış yaşamaqdan doymur adam.
Hər naxşına söz qoşuram, hər sözümə naxış olur,
Gözəlliklər sərgisidir mənim muxtar respublikam.

Canım yansa bir can deyər, ağrılarım candan çıxar.
Bura mənim can evimdir, bura mənim canməkanım,
Ürək əsər, ruh titrəyər, qəlb tövşüyər, can darıxar.
Bircə günlük səndən ayrı düşsəm əgər, Naxçıvanım.

**Elxan YURDOĞLU**

# Bütün istəyinə çatıb Naxçıvan

Bu gün Yer kürəsi öz məhvərində
Ulu bir diyarla öyünür hər an.
Dünyanın döyünən düz ürəyində
Özünə yer tutub, durur Naxçıvan.

Tanrıdan pay gələn sərvət-varı var,
Tükənməz qoynunda gövhəri-zəri.
Boyca kiçik olan müqəddəs torpaq
Bəxş edib cahana böyük Heydəri.

Elə o dühayla ən ağır anda
Zamanla üz-üzə durdu Naxçıvan.

O Ulu Öndərin qayğılarıyla
Yeni günlərini qurdu Naxçıvan!

Qəlblər ovsunlayır torpağı, daşı,
Şəfəqə bələnir doğulanda dan.
Çox qədim olsa da, tarixdə yaşı
Gənclik libasını geyib Naxçıvan.

Şərqin qapısıdı, Nuhun yurdudu,
Nəsillər yaşayır Gəmiqayada.
Məğrur Əlincədi, qalib ordudu,
Sədərək sınmadı düşmənə, yada.

Mənim Naxçıvanım Odlar yurdunun
Qeyrət qalasıdı, ər balasıdı.
Günəş qürub çağı büsbütün onun,
Çöhrəsi Şahbuzun dağ lalasıdı.

Bol nemət yetirən varlı elləri
Kəhraba üzümlü, heyva, narlıdı.
Sevinc təknəsidi gələn illəri,
Ordubad bəhrəli, Şərur barlıdı.

**İbrahim YUSİFOĞLU**

# Yüz ilimin sədası

*Qanımız səpələnib bu yurdun yarasına,*
*Addım-addım sarıyıb bu yurda can demişik.*
*Yüz ilin zəfərində Naxçıvanın payı var,*
*Yumruq kimi birləşib, Azərbaycan! – demişik!*

*Anam Azərbaycanım, yüz yaşlı övladınam,*
*Səninlədir sevincim, səninlədir kədərim.*
*Bir körpə uşaq kimi başımda sığalın var.*
*Şərqin qapısı oldun, sənsən mənim öndərim!*

*Hər atılan caynağa poladtək sinə verib*
*Keçmişik biz tarixin alovlu sınağından.*
*Dünənim bu günümdə dolaşır sirli-sirli,*
*Birləşib yollar açır sabahın sorağından.*

*Sən, muxtar respublikam, tarixin əlifbası,*
*Min illər tarix yazan insanların var olub.*
*Rəssamın qaya üstə, şairin qəlbə yazıb,*
*Qəhrəman oğulların igidliyi car olub.*

*Yüz ildir ayrılmısan doğma qardaşlarından,*
*Qovuşmağa bir addım, bir anlıq nəfəs qalıb.*
*İndi addım atırıq Zəngəzur yollarında,*
*Zəngəzur-Azərbaycan! – deməyə bir səs qalıb.*

**Təranə ARİFQIZI**



# Cənnət qoxan torpağım

*Bayrağıma bürünüb Naxçıvanın göyləri,*
*Bura daşın daş üstə daşa hopan yeridir.*
*Bura canım bayrağın rüzgar qanadlarıyla*
*Qanad çırpan yeridir!*
*Durmuşam Əlincədə*
*Üzüm Turana sarı.*
*Təbrizimə, Dərbəndə,*
*Şuşama, Qarabağa,*
*Zəngəzura, Göyçəyə...*
*Üzüm cahana sarı!*
*Gözlərimi qapayıb, dinləyirəm səsini,*
*Ər meydanı sulayan igidlər nərəsini.*
*Çaxnaşanda qılınclar göydə şimşəklər kimi*
*Kim dura bilmiş axı oğulların önündə?!*
*Şaxə qalxan atların kişnərtisin duyuram.*
*Mənim şanlı tarixim qələmlə yazılmayıb,*
*Bu torpağın köksünə dəmirlə döyülübdür.*
*Səma qoxan,*
*Bulud qoxan,*
*Göy qoxan qız isməti bayrağım,*
*Vətən oğullarının çiynində böyüyübdür.*
*Kölgə salır üstümə dəli köhlən bayrağım,*
*Nazlanır kölgəsində cənnət qoxan torpağım.*
*Naxçıvan mənim ən dəli nidam,*
*Yazılmamış qafiyəm,*
*Deyilməmiş sözümsən!*
*Kürümsən,*
*Arazımsan,*
*Mənim sərbəst şeirimsən.*
*Zirvə qartalı kimi qanad çalır köksündə*
*Mənim şanlı bayrağım.*
*Nazlanır kölgəsində cənnət qoxan torpağım!*
*Öpürəm torpağımdan,*
*Öpürəm bayrağımdan!*

**Gülsadə İBRAHİMLİ**



# Yüz ilin Naxçıvanı

Bir başqadır bu yurdun baharı da, qışı da,
Torpağında gül açar gözlərimin yaşı da,
Bəxş etdiyi oğullar haqq edir alqışı da.
Damarımıza axıb hər damla şəhid qanı,
Əzəmətlə dayanıb yüz ilin Naxçıvanı!

Külək olsa görünər hər dalğası dənizin,
Bu müqəddəs məkanı tarixçi kimi gəzin,
Üstündə izləri var Şəmsəddin Eldənizin.
Keçmişini unutma, məkanı yaxşı tanı,
Əzəmətlə dayanıb yüz ilin Naxçıvanı!

Çətinliklə bərabər yaşanıb xoş çağımız,
Bu yer bizim eşqimiz, bu yer cənnət bağımız,
Bu diyardan yüksəlib üçrəngli bayrağımız.
Birliyi, dəyanəti heyran edib dünyanı,
Əzəmətlə dayanıb yüz ilin Naxçıvanı!

Torpağı da, daşı da, qayası da fərqlidir,
Dostluqda, sədaqətdə mayası da fərqlidir,
Alimi də fərqlidir, ziyası da fərqlidir.
Belə qürurlandırıb anam Azərbaycanı,
Əzəmətlə dayanıb yüz ilin Naxçıvanı!

**Eyvaz SƏMƏDOV**





# Pəzməridə

## donmuş arzular Zəngəzur Günəşi ilə əriyərsə...

Naxçıvanı addım-addım gəzib-dolaşan peşə sahibləri sırasında jurnalistlər birinci yerdə durur desək, yanılmarıq. Muxtariyyətin hər daşı, hər qayası sanki onlara bütün sirlərini açaraq "Mən Nuhun yurduyam", "Nuhun nəfəsiyəm", "Gəlin məni kəşf edin", – deyə pıçıldayıb. Təbiətinin rəngarəngliyi ilə seçilən bu füsunkar diyar gözəlliyə biganə qalmayan hər kəsi özünə heyran buraxır. Bu qədim yurdu gəzən insanları bir-birindən gözəl, ecazkar mənzərələr qarşılayır. Əzəmətli Haçadağı, füsunkar Batabatı, Üzən adası, Zor bulağı, Göy gölü, Əlincə qalası, Pəzməri şəlaləsi və digər möhtəşəm təbiət abidələri ilə muxtar respublika həmişəki kimi öz təbii gözəlliklərini geniş ürəklə onu ziyarət edənlərə göstərir.

Qədim Şərqin qapısının 100 illiyinə həsr olunan "Naxçıvanı tanıyaq" adlı fotosərgiyə böyük əzm və qürurla hazırlaşan "Şərq qapısı"nın peşəkar jurnalist və fotoqrafları ilk dəfə öz oxucularına Pəzməri şəlaləsinin donmuş və qarlı fotosunu təqdim ediblər. Ordubadın əsrarəngiz təbiət abidələrindən olan bu şəlalə son illərdə ən çox üz tutulan təbii turizm obyektlərindəndir. Əməkdaşlar Zəngəzur silsiləsinin Ayıçınqılı aşırımından 3707 metr hündürlükdə yerləşən bu füsunkar təbiət abidəsinə yolu Pəzməri kəndindən 6 saata qət ediblər. Bulaq və qar suları ilə qidalanan, dəniz səviyyəsindən 2161 metr hündürlükdə yerləşən şəlaləyə gedən macəralı yolda onları ilk salamlayan Zəngəzur silsiləsindən boylanan Günəş, dağ keçiləri, kəklik və muflonlar olub. Keçmişdə şəlalənin kinetik enerjisindən istifadə etmək məqsədilə burada su dəyirmanı qurulub və dən üyüdülüb. Kəndin yuxarı hissəsində olan dəyirmanın qalıqları günümüzə qədər qalmaqdadır. Pəzməri çayı üzərindəki eyniadlı böyük şəlalədən başqa, bir neçə kiçik şəlalə burada olduqca gözəl bir mənzərə yaratmaqla yanaşı, həm də ərazinin geniş turizm potensialından xəbər verir.

Təxminən, 30 metr hündürlükdən axan şəlalə bizə sanki buz heykəlləri xatırladır. Lal qayalar, ağ örpəyə bürünən dağlar, donmuş çaylar bizə min illər əvvəl buranın ilk insan məskənlərindən olduğunu xəbər verir. Düşünürəm ki, insanlar Nuh tufanında bu dağların qoynunda ilk dəfə quruya çıxarkən torpağa göz yaşları ilə minnətdarlıqlarını bildiriblər. Bəlkə də, o məsum və sel kimi axan göz yaşlarından yaranıb mənbəyini heç vaxt qurumayan gur bulaqlardan götürən bu şəlalə. Bəlkə də, bəzi insanlar zaman-zaman öz vicdanlarını yuyub, qaralmış qəlblərini bu qayaların döşündə bərq vuran Günəşə ərməğan ediblər.

Bir vaxtlar bu dağların suyundan içmiş sakinlərin öz el-obasından ayrı düşməsi ilə şəlalə də öz susqunluğuna qərq olaraq sakitliyində həzin-həzin öz içinə axıb. Bəlkə də, onun Zəngəzur Günəşi ilə ilk dəfə qarlı, sırsıralı və donan halını çəkən əməkdaşlar bizə nəsə demək istəyir... Gəlin sizə bir sirr verim. Onların ürəyindəki sevinci sizinlə paylaşım. Onlar şəlalənin yanında dilək tutub, əllərini sonsuz səmaya açıb Allaha pıçıldadılar: "Pəzməridə donmuş arzuların Zəngəzur Günəşi ilə əriməsi nəsibimiz olsun!!!"

**Fariz ƏHMƏDOV**

# Naxçıvanın muxtariyyəti tarixi hadisədir



Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə əlaqədar "Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsdə tədbir keçirilib.

Agentliyin əməkdaşları əvvəlcə Dövlət Bayrağı Muzeyində olublar. Ekskursiya zamanı iştirakçıların diqqətinə çatdırılıb ki, muzeyin ekspozisiya zalında sərgilənən eksponatlar arasında üçrəngli Dövlət Bayrağı, 1922-1981-ci illər arasında SSRİ dövründə qəbul edilmiş Naxçıvan bayraqları, Naxçıvan xanlığının döyüş və Dövlət bayraqları, Kəngərli süvari dəstəsinin döyüş bayrağı, Eldəgizlər dövlətinin bayrağının, Naxçıvan Bəy Drujinasının döyüş və fəxri bayraqlarının, Naxçıvan Qəzasının gerbinin, Naxçıvan xanlarının gerbinin fotosurətləri nümayiş olunur. Bununla yanaşı, 1990-cı il 17 noyabr tarixdə Naxçıvanda üçrəngli Dövlət Bayrağının qəbul olunması haqqında qərarın və qəbul olunan üçrəngli Dövlət Bayrağının fotosurətləri və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həmin qərarı oxuyarkən çəkilmiş fotoşəkli, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasından Naxçıvan Muxtar Dövlətinin rəmzləri haqqında çıxarışın fotosurəti də muzeyin dəyərli eksponatları arasındadır.

Avtomobil Yolları Dövlət Agentliyində davam edən tədbiri giriş sözü ilə agentliyin idarə heyətinin sədri Bəhruz Əsgərov açıb, muxtariyyətin 100 illik yubileyi münasibətilə kollektivi təbrik edib. Bəhruz Əsgərov diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd olunması ilə bağlı ölkə başçısı cənab İlham Əliyevin imzaladığı 2023-cü il 30 dekabr tarixli Sərəncam xalqımızın əldə etdiyi böyük tarixi nailiyyətin uğurlu nəticəsidir.

Bəhruz Əsgərov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin Naxçıvanın muxtariyyət statusunun qorunması, muxtar respublikanın yubileylərinin keçirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər dahi rəhbərin bu qədim yurd yerinə qayğısının ifadəsi idi. Həmçinin Naxçıvan Muxtar Respublikasının 80, 85, 90, 95 illik yubileylərinin ölkəmizdə geniş qeyd olunması bunun bariz nümunəsidir. Görkəmli dövlət xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Agentliyin idarə heyətinin sədr müavini Ruslan Ramazanov çıxışında bildirib ki, ölkə başçısı cənab İlham Əliyevin Naxçıvan muxtariyyətinin 100 illik yubileyi ilə bağlı imzaladığı müvafiq Sərəncamın icrası muxtar diyarımızda silsilə tədbirlərlə yadda qalır. Qeyd etmək yerinə düşər ki, Azərbaycandan ayrı salınmış, geostrateji baxımdan əhəmiyyətli bir bölgədə vahid idarəçiliyin həyata keçirilməsi, pərakəndəliyin aradan qaldırılması yalnız muxtariyyət statusunun əldə edilməsi ilə mümkün ola bilərdi. Bu baxımdan Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət verilməsi ən düzgün qərar idi.

Bildirilib ki, 1990-cı ilin iyul ayında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisini işğaldan xilas edib. Bu illərdə dahi şəxsiyyətin Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəmə gətirərək dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkar siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci həyat bəxş edib.

Tədbirə Bəhruz Əsgərov yekun vurub.

## İtmişdir

Mənsimov Pünhan Mahir oğlunun adına olan 28 iyul 2022-ci il tarixli müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun AD-0055408 seriya nömrəli hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Kosacan kəndində yaşamış Bağırov Nazir Bağır oğlunun adına olan 102013000360-10301 reyestr nömrəli fərdi yaşayış evinin texniki pasportu və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Zeyvə kənd sakini Rzayev Hidayət İbrahim oğlunun adına olan JN-1587 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Xok kənd sakini İsmayılov Natiq Məmiş oğlunun adına olan JN-893 nömrəli, 10800038 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Atabəylər məhəlləsi 12, mənzil 16-da yaşayan Baxışova Sevil Mehdi qızının adına olan evin 6912 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Vayxır kənd sakini Ələsgərov Bəxtiyar Teymur oğlunun adına olan JN-249 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Nəsirov Əbdilqadir Əqil oğlunun adına olan JN-33$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-12 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

"Qapıcıq" MMC-yə məxsus (VÖEN-0400075681) əmrlər kitabı itdiyindən etibarsız sayılır.

***

"Zərəni" MMC-yə məxsus (VÖEN-0400113881) əmrlər kitabı itdiyindən etibarsız sayılır.

***

"Çobanoğlu" MMC-yə məxsus (VÖEN-0400075551) əmrlər kitabı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Qarabağlar kəndində yaşayan Əliyev Sədrəddin Yusif oğlunun adına olan MH-0016004 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Maxta kənd sakini Novruzov Nüsrət Hüseyn oğlunun adına olan JN-674 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Azərbaycan Ordusunun giziri Məhərrəmov Asim Allahverdi oğlunun adına verilmiş AD-0028772 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Şəhriyar kənd sakini Əsgərov Vidadi Sabir oğlunun adına olan JN -521$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndi, 4-cü küçə, 41 ünvanında Salahov Qurban Müseyib oğlunun adına olan 17097 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

## Allah rəhmət eləsin

Duzdağ Fizioterapiya Mərkəzinin baş həkimi Heyran Qazıbəyova, hüquqşünas Səməd Vəkilov və "Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi" MMC-nin direktoru Rövşən Vəkilov Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Nağıqızı Hüseynovaya anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: SARA ƏZİMOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 35